HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 04 (846) ▪ 1 fevral 2017 www.vergiler.az Qiyməti: 55 qəp.

# Prezident İlham Əliyev: Ölkəmizdə güclü milli biznes sinfi formalaşdırılıb

## Yeni bir qlobal layihə - Cənub Qaz Dəhlizi uzunmüddətli maraqlarımızı təmin edəcək

Yanvarın 30-da Heydər Əliyev Mərkəzində «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının üçüncü ilinin yekunlarına həsr olunan konfrans keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev konfransda iştirak edib.



2004-cü ildə birinci proqramın qəbul edilməsi tarixi hadisə idi. Çünki regionların inkişafı, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılan bu addımlar, infrastruktur ilə bağlı olan layihələr, bax, bugünkü reallığı yaratmışdır.

Konfransda giriş nitqi ilə çıxış edən dövlətimizin başçısı bildirib ki, bütün obyektiv çətinliklərə baxmayaraq, 2016-cı ildə Azərbaycan iqtisadiyyatı inkişaf edib və bütün əsas vəzifələr icra olunub. Kənd təsərrüfatı 2,6 faiz, qeyri-neft sənayesi isə 5 faiz artıb. Ötən il yüz mindən çox daimi iş yeri yaradılıb: «2016-cı ildə gördüyümüz işlərə dünyanın mötəbər beynəlxalq iqtisadi qurumları da yüksək qiymət verirlər. Onların arasında dünyanın ən böyük qeyri-hökumət iqtisadi qurumu, bütün dünya liderlərini, dünyanın siyasi-iqtisadi elitasını birləşdirən Davos Dünya İqtisadi Forumu Azərbaycan ilə bağlı verdiyi hesabatda yenə də müsbət rəy bildirmişdir. Beləliklə, ölkələrin rəqabətqabiliyyətliliyinə görə Azərbaycan üç pillə irəliləyərək 37-ci yerdə qərarlaşmışdır. Digər göstəriciyə - inkişaf edən ölkələr arasında inkişafa görə isə, - bu hesablama təxminən 80-ə yaxın inkişaf edən ölkəni cəmləşdirir, - Azərbaycan birinci-ikinci yerləri bölüşür».

**«Biz öz işimizi reytinq almaq üçün qurmuruq»...**

Azərbaycan Prezidenti bildirib ki, biz, əlbəttə ki, öz işimizi reytinq almaq üçün qurmuruq. Ancaq, əlbəttə, belə bir fikirlər ortalığa qoyulanda bu, həm bizi daha da sevindirir, eyni zamanda, bu, dünyanın bütün maliyyə qurumlarına bir siqnaldır: «Ona görə bu gün Azərbaycan üçün istənilən layihəyə kredit almaq artıq çoxdan problem deyil. Hətta indiki siyasətimiz ondan ibarətdir ki, biz xarici kreditlərə o qədər də böyük meyil göstərməyək. Çalışmalıyıq ki, bundan sonra da bütün işləri daxili imkanlar hesabına görək. Çünki xarici borcun artması müsbət hal deyil. Bizdə isə bu göstərici də çox yaxşı səviyyədədir, təqribən 20 faiz səviyyəsindədir. Bu da əvvəlki illərlə müqayisədə daha da böyük rəqəmdir. Bunun da səbəbi manatın devalvasiyaya uğramasıdır. Ondan əvvəlki dövrdə bizim xarici borcumuz 10 faiz həddini keçməyib. Bu gün də bu, məqbul səviyyədədir. Amma biz çalışmalıyıq ki, bu, artmasın, əksinə, azalsın».

Keçən il bölgələrdə çox böyük işlər görüldüyünü diqqətə çatdıran dövlətimizin başçısı bildirib ki, Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası bölgələrimizin simasını dəyişdirib: «2004-cü ildə birinci proqramın qəbul edilməsi tarixi hadisə idi. Çünki regionların inkişafı, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılan bu addımlar, infrastruktur ilə bağlı olan layihələr, bax, bugünkü reallığı yaratmışdır. Əgər o vaxt biz proqramı mənim təşəbbüsümlə qəbul etməsəydik, bu gün, əlbəttə ki, regionlarda bugünkü uğurları əldə edə bilməzdik. Bizim bütün bölgələrimiz, bütün şəhərlərimiz abadlaşıb, gözəlləşib. Bakı şəhəri, bizim əsas şəhərlərimiz - Gəncə, Sumqayıt göz oxşayır, dünya üçün bir nümunədir. Bizim bütün şəhərlərimizdə abadlıq-quruculuq işləri aparılmışdır, böyük infrastruktur layihələri icra edilmişdir. Bu, imkan verir ki, bu gün Azərbaycan dinamik inkişaf etsin. Bu, imkan verir ki, biznes strukturları bu imkanlardan səmərəli istifadə etsinlər».

Prezident İlham Əliyev qeyd edib ki, proqramın birinci mərhələsi daha çox infrastruktur layihələri ilə bağlı idi. Bu da təbii idi. Çünki biz 2004-cü ildə enerji təhlükəsizliyimizi tam təmin edə bilməmişdik. Bakı-Tbilisi-Ceyhan inşa edildi, xaricdən elektrik enerjisi və qaz idxalına son qoyuldu. Birinci hədəf enerji müstəqilliyimizi təmin etmək idi və buna nail olundu. 2004-cü ildən bu günə qədər ölkəmizdə 26 elektrik stansiyası tikilmiş və stansiyaların ümumi istehsal gücü 2400 meqavatdır. Bu gün ölkəmizdəki 35 elektrik stansiyasının 26-sı regional inkişaf proqramının icrası sayəsində yaradılıb. Eyni zamanda, qazlaşdırma səviyyəsi 13 il əvvəl 51 faiz səviyyəsində idisə, bu gün 92 faizə çatıb. Bölgələrin qazlaşdırılması yüksək səviyyədədir. 2004-cü ildən bu günə qədər təxminən 11 min kilometr avtomobil yolu tikilib. Yol tikintisinə kifayət qədər çox işçi qüvvəsi iştirak edir və məşğulluq təmin edilib.

Azərbaycan Prezidenti sosial infrastruktur layihələrinin icrasına da diqqət çəkib və bildirib ki, 2004-cü ildən başlayaraq üç mindən çox məktəb tikilib və ya təmir edilib, 600-dən çox tibb ocağı tikilib və ya təmir olunub. Bölgələrdə 40-dan çox Olimpiya İdman Kompleksi, 20-dən çox muzey, 10-dan çox teatr binası inşa edilib

**2004-cü ildən bu günə qədər sahibkarlara təxminən 2 milyard manat dəyərində güzəştli şərtlərlə kreditlər verilib**

Dövlətimizin başçısı kənd təsərrüfatını stimullaşdırmaq üçün böyük meliorativ tədbirlər görüldüyünü, yüz minlərlə hektar torpağın meliorativ vəziyyətinin yaxşılaşdırıldığını, yeni suvarılan sahələrin dövriyyəyə buraxıldığını, dörd su anbarının tikildiyini diqqətə çatdırıb. İnkişaf proqramlarının icra edildiyi illər ərzində Azərbaycanda güclü və fəal milli biznes sinfinin formalaşdığını xatırladıb: «Dövlət bu sahədə öz dəstəyini əsirgəməmişdir. Mən iş adamları ilə daim təmasdayam, görüşlər keçiririk, onların problemlərinin həlli ilə məşğuluq və onlara həmişə siyasi və maddi dəstək verilir. Çünki mən yaxşı başa düşürdüm ki, ilkin kapital olmadan heç bir işi görmək mümkün deyil. Bir də ki, heç bir biznesmen, iş adamı riskli yerlərə, ölkələrə heç vaxt pul qoymaz. Ona görə təhlükəsizlik, sabitlik, gözəl ictimai ab-hava, biznesə dövlət dəstəyi və maddi dəstək, - bax, hesab edirəm ki, bu amillər milli biznes sinfini formalaşdırıb.

Son illər ərzində - 2004-cü ildən bu günə qədər Azərbaycan sahibkarlarına təxminən 2 milyard manat dəyərində güzəştli şərtlərlə kreditlər verildiyini, kreditlərin ölkə iqtisadiyyatının inkişafına böyük dəstək olduğunu vurğulayan Prezident İlham Əliyev qeyd edib ki, artıq bu ildən Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə veriləcək güzəştli kreditlərin hamısı əvvəlki illərdə verilmiş və qaytarılmış kreditlər hesabına təmin olunacaq: «Hesab edirəm ki, bu da bir yenilik idi. Mən xatırlamıram ki, hər hansı bir ölkədə biznes strukturlarına dövlət tərəfindən, bax, bu formada yardım göstərilsin. Onu da qeyd etməliyəm ki, bizim təcrübəmizdən indi bir çox ölkələr istifadə edirlər və bizi nümunə kimi göstərirlər. Ona görə infrastruktur layihələri, onunla paralel olaraq biznes mühitinin yaxşılaşdırılması, biznesə göstərilən diqqət və əlbəttə ki, sosial infrastrukturun yaradılması vahid bir proqram çərçivəsində uğurla icra edilir».

Ötən illər ərzində ölkəmizin strateji maraqlarını təmin edən nəhəng layihələr həyata keçirilib. Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-cı, Bakı-Tbilisi-Ərzurum qaz kəməri 2007-ci illərdə istifadəyə verilib. Hazırda yeni bir qlobal layihə - Cənub Qaz Dəhlizi icra edilir: «Cənub Qaz Dəhlizi bu gün ancaq Azərbaycanın liderliyi hesabına icra edilir. Bunu bu işlərlə tanış olan hər kəs təsdiq edə bilər. Təsadüfi deyil ki, Azərbaycanın bu işdə liderliyi, fəal və əsas rolu ötən ilin fevralında Bakıda keçirilən ikinci Cənub Qaz Dəhlizi Məşvərət Şurasının yekun sənədində də göstərilib. Bu layihə əlbəttə ki, uzunmüddətli maraqlarımızı təmin edəcək. Bu layihənin icrasından sonra həm maliyyə imkanlarımız böyük dərəcədə artacaq, eyni zamanda, Azərbaycan regional əməkdaşlıq, enerji təhlükəsizliyi baxımından indikindən daha çox, daha böyük önəm daşıyan ölkə olacaq».

Tədbirdə çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev, kənd təsərrüfatı naziri Heydər Əsədov, Azərbaycan Meyvə və Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Bəşir Quliyev, Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri İsmayıl Orucov, Azərbaycan Turizm Assosiasiyasının rəhbəri Nahid Bağırov və digər natiqlər dövlətin sahibkarlığın inkişafına verdiyi dəstək, regionlarda yaradılan istehsal sahələri və sahibkarların ixrac imkanları barədə məlumat veriblər.

**«Regionlar dayanıqlı enerji ilə təmin edilməli, qazlaşdırma səviyyəsi 94%-ə çatdırılmalıdır»...**

Konfransda yekun nitqi ilə çıxış edən Prezident İlham Əliyev iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı çox ciddi addımlar adıldığını, yeni islahatların həyata keçirildiyini və bu tədbirlərin ixrac və yerli istehsal üçün yeni imkanlar yaradacağına əminliyini ifadə edib. 2017-ci ildə görüləcək işlərlə bağlı tapşırıqlar verən dövlətimizin başçısı ilk növbədə, infrastruktur layihələrinin icrasının davam etdirilməsinin, xüsusilə də, bölgələrdə elektrik təsərrüfatının təkmilləşdirilməsi, yeni xətlərin çəkilməsi, bütün regionların dayanıqlı enerji ilə təmin edilməsi üçün əlavə tədbirlər görülməsinin vacibliyini diqqəyə çatdırıb. Bu il «Azəriqaz» tərəfindən ən azı 80 kəndə qaz verilməli, qaz xətlərinin çəkilməli və ilin sonuna qədər qazlaşdırma səviyyəsinin 94 faizə çatdırılmalı olduğunu tapşırıb.

Əhaliyə 24 saat fasiləsiz su verilməli və su təminatı səviyyəsinin ölkə üzrə 65 %-dən çox artırılmalı və bu il 50 kənddə sutəmizləyici qurğular quraşdırılmalı olduğunu əsas tapşırıqlardan biri kimi qarşıya qoyub.

Qeyd edib ki, meliorasiya ilə bağlı əlavə tədbirlər görülməli, bu il təqribən 150-160 min hektar torpağa suyun verilməsi təmin edilməlidir. Nəticədə görüləcək bu işlər sayəsində 160 min hektara yaxın yeni əkin sahələri yaradılacaq. Prezident İlham Əliyev Azərbaycanda pivot suvarma qurğularının istehsalına başlanmalı olduğunu, burada biznes qurumlarının fəallıq göstərməsini də vacib saydığını qeyd edib.

Dövlət başçısı bu il 40 kənd yolu layihəsinin icrası, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının tikintisinin davam etdirilməsinin vacibliyini də bildirib. Qlobal regional layihələrin, Bakı-Tbilisi-Qars, Şimal-Cənub layihələrinin icra olunduğunu xatırladıb.

**«Biz Cocuq Mərcanlı kəndini qısa müddət ərzində yenidən quracağıq»...**

Azərbaycan Prezidenti 2017-ci ildə sosial məsələlərin həlli ilə bağlı bütün proqramların icra ediləcəyini, icbari tibbi sığorta ilə bağlı önəmli addımlar atıldığını da bildirib: «Artıq Mingəçevir şəhərində və Yevlax rayonunda pilot layihə icra edilməyə başlanıb. Biz baxarıq bu layihə necə icra ediləcək. Hər halda, inkişaf etmiş ölkələrdə icbari tibbi sığorta sistemi çoxdan tətbiq olunur.

**Davamı 2-ci səhifədə**

# Azərbaycan-Qətər münasibətləri genişlənir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 31-də Qətər Dövlətinin xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdürrəhman Al-Taninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Prezident İlham Əliyev Azərbaycan ilə Qətər arasında ikitərəfli əlaqələrin səviyyəsindən məmnunluğunu ifadə edib. Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al-Taninin Azərbaycana səfərinin əlaqələrimizin inkişafında mühüm rol oynadığını bildirib, eyni zamanda,

Qətərin xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdürrəhman Al-Taninin ölkəmizə səfərinin əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkanlar yaratdığını vurğulayıb. Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın fəaliyyətinə toxunan dövlətimizin başçısı bu komissiyanın iqtisadi əməkdaşlığımızın praktik məsələlərinin müzakirəsinə diqqət yetirəcəyinə ümidvar olduğunu bildirib.

Qətərin xarici işlər naziri Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al-Taninin ən səmimi salamlarını Prezident İlham Əliyevə çatdırıb və onu ölkəsində görməyi səbirsizliklə gözlədiyini deyib. Nazir Azərbaycanda gedən inkişaf proseslərinin Qətərdə böyük maraqla izlənildiyini qeyd edib.

# Avropa Komissiyasının nümayəndə heyəti ölkəmizdə səfərdə olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Avropa Komissiyasının Avropa Qonşuluq Siyasəti və genişlənmə danışıqları üzrə baş direktoru Kristian Danielsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Avropa Komissiyasının Avropa Qonşuluq Siyasəti və genişlənmə danışıqları üzrə baş direktoru Kristian Danielson ilk dəfə ölkəmizə səfər etdiyini, paytaxtımızın arxitekturasının, xüsusilə də Heydər Əliyev Mərkəzinin gözəlliyinin onda dərin təəssürat yaratdığını məmnunluqla vurğulayıb. Prezident İlham Əliyev ölkəmizdə həyata keçirilən islahatlar, iqtisadiyyatın, o cümlədən ixracın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, enerji, həmçinin TAP, nəqliyyat, kənd təsərrüfatı və digər sahələrdə görülən işlərdən danışıb, bütün bu sahələrdə həyata keçirilən mühüm layihələrin Avropa İttifaqı ilə əməkdaşlıq müstəvisində önəmini xüsusi qeyd edib.

# Azərbaycan Prezidenti Amerika Yəhudi Komitəsinin nümayəndələrini qəbul edib

Azəbaycan Prezidenti İlham Əliyev yanvarın 29-da Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin və komitənin prezidenti Con Şapironun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycanda iqtisadi və digər sahələrdə həyata keçirilən islahatlar ətrafında fikir mübadiləsi aparılıb, bu islahatların yaxından izlənildiyi qeyd olunub. Azərbaycan Prezidentinin Davosda səmərəli görüşlər keçirdiyi vurğulanıb, bu görüşlər dünyada Azərbaycanla əməkdaşlığa olan marağın göstəricisi kimi dəyərləndirilib. Söhbət zamanı Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli əlaqələrə toxunulub, bu əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edilib, Azərbaycan-ABŞ əməkdaşlığının bundan sonra da davam etdiriləcəyi əminliklə qeyd olunub.

BU NÖMRƏMİZDƏ

REGİONLARDA KEÇİRİLMİŞ GÖRÜŞLƏRDƏ 3500-ə YAXIN SAHİBKAR İŞTİRAK EDİB 2

AÇIQ DİALOQ HƏM SAHİBKARLARIN, HƏM DƏ VERGİ ƏMƏKDAŞLARININ İŞİNİ ASANLAŞDIRIR 3

58-ci XİDMƏT MƏRKƏZİ İSTİFADƏYƏ VERİLDİ 4

SABİT VERGİ UÇOT SİSTEMİNDƏ DƏQİQLİYƏ XİDMƏT EDƏCƏK 5

# Prezident İlham Əliyev: Ölkəmizdə güclü milli biznes sinfi formalaşdırılıb

## Yeni bir qlobal layihə - Cənub Qaz Dəhlizi uzunmüddətli maraqlarımızı təmin edəcək

Əvvəli 1-ci səhifədə

Biz də müasirliyə doğru gedirik. Biz bütün sahələrdə ən qabaqcıl təcrübəni tətbiq etməliyik».

Sosial infrastruktur layihələri ilə bağlı konkret tapşırıqlar verildiyini diqqətə çatdıran dövlətimizin başçısı bu il təxminən 130-a yaxın məktəbdə təmir və tikinti işləri aparılmasının, gələn il Bakıda təmirə ehtiyacı olan qalan məktəblərdə də təmir işlərini yekunlaşdırmasının vacibliyini bildirib. Bu il Abşeron və Ağcabədi Olimpiya İdman komplekslərinin istifadəyə verməsi də nəzərdə tutulur. Digər Olimpiya komplekslərində də işlərin davam etdirilməsi tapşırılıb.



Son illər ərzində məcburi köçkünlər üçün 100-ə yaxın qəsəbə inşa edildiyini bildirən Azərbaycan Prezidenti 200 mindən çox məcburi köçkünün həmin binalarda yerləşdirildiyini, ümumilikdə, son illərdə məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması və məşğulluğunun artırılması məqsədlərinə 5 milyard manatdan çox vəsait ayrıldığını vurğulayıb. Bu işin davam etdiriləcəyini, bu il Bakıda yataqxanalarda məskunlaşan köçkünlərin köçürülməsi prosesinə başlanılacağını, digər layihələrin həyata keçiriləcəyini diqqətə çatdırıb: «Cocuq Mərcanlı kəndinin yenidən qurulması ilə bağlı müvafiq Sərəncam imzalanmışdır. Bu layihənin icra edilməsi çox böyük rəmzi məna daşıyır. Bu, tarixi hadisədir. Biz işğaldan azad edilmiş kəndə sakinləri qaytarırıq. Mən çox şadam ki, Cocuq Mərcanlı kəndinin sakinləri buna çox böyük həvəslə, böyük maraqla yanaşırlar, o günü səbirsizliklə gözləyirlər. Əminəm ki, biz Cocuq Mərcanlı kəndini qısa müddət ərzində yenidən quracağıq».

> Cocuq Mərcanlı kəndinin yenidən qurulması ilə bağlı müvafiq Sərəncam imzalanmışdır. Bu layihənin icra edilməsi çox böyük rəmzi məna daşıyır. Bu, tarixi hadisədir. Biz işğaldan azad edilmiş kəndə sakinləri qaytarırıq

### «Bu il ictimai xidmətlər istiqamətində 42 min iş yeri açılacaq»...

Prezident İlham Əliyev ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün əlavə işlərin görülməli olduğunu, biznes qurumlarının bu sahədə daha fəal çalışmalarını vacib məsələlərdən hesab etdiyini vurğulayıb. Yeni iri fermer təsərrüfatlarının fəaliyyəti nəticəsində buğda ilə təmin etmənin artırılmasının mümkünlüyünü qeyd edib. Kənd təsərrüfatının müxtəlif sahələri, o cümlədən, pambıqçılıq, üzümçülük və şərabçılıq, baramaçılıq, zeytunçuluq, çayçılıq, arıçılıq, tütünçülük və fındıqçılığın inkişaf etdirilməsi, şəkər çuğunduru, meyvə - xurma, nar bağlarının salınması üçün artıq müvafiq göstərişlər verildiyini bildirib. Əkin sahələri və səmərəsiz istifadə olunan örüş sahələrinin əkinə cəlb edilməsi tapşırılıb. Dövlət başçısı qeyd edib ki, bu sahələrin inkişafı ilə bağlı bütün lazımi tədbirlər görülür: «Fermerlərə böyük güzəştlər edilir. Onlar torpaq vergisi istisna olmaqla bütün vergilərdən azaddırlar. Suvarma işləri aparılır, infrastruktur yaradılır. Güzəştli şərtlərlə kreditlər, yanacaq, gübrə, subsidiyalar, metodik tövsiyələr verilir. Dövlət, eyni zamanda, öz hesabına fındıq və tut tingləri gətirir. Pambıqçılıqla bağlı dövlət xətti ilə böyük işlər görülür, texnika alınır, suvarma tədbirləri həyata keçirilir. Yəni, bütün bunları biz edirik ki, yerlərdə yaşayan insanlar bu imkanlardan istifadə etsinlər. Bu, onların güzəranının yaxşılaşdırılması üçündür». Prezident İlham Əliyev sənaye zonalarının yaradılması, turizmlə bağlı görülən işlərə də diqqət çəkərək ölkəmizdə güclü turizm sənayesinin yaradılmalı olduğunu bildirib. Bu il 42 min ictimai iş yerinin açılacağını vurğulayan dövlətimizin başçısı qeyd edib kii, bu iş yerləri mümkün olan işsizliyi aradan qaldırmaq üçündür: «Bu işlər ictimai işlərdir. Bölgələrdə təmir-tikinti ilə, yaşıllıq zonalarına xidmətlə bağlı iş yerləri açılacaq. Dövlət şirkətlərinin xətti ilə də bu cür iş yerləri açılacaq. Yalnız ictimai xidmətlər istiqamətində 42 min iş yeri açılacaq».

### «Dövlət qurumları daha neft amilinə bel bağlamasınlar»...

Ölkəmizin artıq postneft dövründə yaşadığını qeyd edən Prezident İlham Əliyev dövlət qurumlarına daha neft amilinə bel bağlamamağı tövsiyə edib: «Ancaq bu, o demək deyil ki, bizim neftimiz tükənir. Yox, bizim neftimiz hələ onilliklər ərzində xalqımıza xidmət edəcək. Azərbaycan qazı iki ildən sonra dünya bazarlarına daha da böyük həcmdə çıxacaq və öz əhatə dairəsini genişləndirəcək. Yəni, bu amil daim var və bu, bizə həmişə güclü bir dəstək kimi kömək edəcək. Ancaq biz işimizi elə qurmalıyıq ki, sanki bu, yoxdur. Bax, bugünkü konfransın, ümumiyyətlə, inkişafla bağlı tədbirlərimizin məqsədi bundan ibarətdir».

Dövlət başçısı aparılan bu tədbirlərin insanların daha da yaxşı yaşaması üçün görüldüyünu xatırladaraq məmur-vətəndaş münasibətlərinə də toxunub. Qeyd edib ki, məmurlar xalq üçün yaşayırlar, əksinə deyil: «Məmur xalqın xidmətçisidir, vətəndaşa xidmət, kömək göstərməlidir, yekəxanalıq etməməlidir. Hansısa qanunsuz tələb irəli sürməməlidir. Özünü təvazökar aparmalıdır. Özü və ailə üzvləri nümunə olmalıdır. Rüşvətxorluqla, soyğunçuluqla məşğul olmamalıdır. Məmur, bax, belə olmalıdır, dediyim kimi. Mən hər bir dövlət məmurunu ya icra başçısı, ya başqa vəzifəyə təyin edəndə göstəriş verirəm ki, get insanlara qulluq et, xidmət göstər, dövlətə xidmət et, təmiz işlə. Amma əfsuslar olsun ki, bəziləri nəticə çıxarmırlar. Onların da cəzası verilir və veriləcək».

> Məmur xalqın xidmətçisidir, vətəndaşa xidmət, kömək göstərməlidir, yekəxanalıq etməməlidir. Hansısa qanunsuz tələb irəli sürməməlidir. Özünü təvazökar aparmalıdır. Özü və ailə üzvləri nümunə olmalıdır

Xoşagəlməz hallara son qoyulmalı olduğunu deyən Azərbaycan Prezidenti «ASAN xidmət»in timsalında idarəetmədə yeni yanaşmaların tətbiqinin genişləndiyini vurğulayıb: «ASAN xidmət»i biz yaratdıq, artıq neçə ildir ki, işləyir. Bir dənə də olsun oradan şikayət yoxdur. Hər halda mən eşitməmişəm. Bəyənilmə əmsalı 98 faizdir. On üç milyon müraciət olunub. Bizim əhalimiz hələ 10 milyona çatmayıb, 13 milyon müraciət olub. Bu, ictimai xidmətlər sahəsində bir yenilikdir. Yəni, bu, nəyi göstərir? Birincisi, bizim iradəmizi və siyasətimizi göstərir. İkincisi isə onu göstərir ki, bu cür işləmək mümkündür. Əgər orada mümkündürsə, deməli, hər yerdə mümkündür. Ona görə məmur-vətəndaş münasibətləri, bu məsələlər cəmiyyət üçün, inkişaf üçün çox önəmlidir. Burada hər şey məmurlardan asılıdır. Onlar dediyim kimi işləməlidirlər. Əgər öz işində nöqsana, yaxud da pozuntuya yol verərsə, onlar lazımi səviyyədə cəzalandırılacaqlar».

«Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfrans çərçivəsində iqtisadiyyat, vergilər, kənd təsərrüfatı nazirlərinin və Dövlət Gömrük Komitəsi sədrinin iştirakı ilə sahibkarlarla görüş keçirilib. Konfransda çıxış edən vergilər naziri Fazil Məmmədov bildirib ki, Azərbaycanın iqtisadi dayanıqlılığının təmin olunmasında iqtisadiyyatın şaxələndirilməsi siyasətinin prioritet istiqamətlərindən olan regionların sosial-iqtisadi inkişafı proqramlarının müstəsna əhəmiyyəti vardır: «Artıq 13-cü ildir ki, ölkəmizin bölgələrinin inkişafı məqsədilə həyata keçirilən bu dövlət proqramlarının uğurla icrası regionların iqtisadi potensialının artmasına, biznes və investisiya mühitinin, həmçinin bölgələrin insfrastrukturunun ciddi şəkildə yaxşılaşmasına, yeni iş yerlərinin yaradılmasına, sahibkarlığın inkişafına şərait yaradıb. Bunun bariz nümunələrindən biri kimi 2017-ci ildə dövlət büdcəsindən dotasiya almayaraq öz daxili gəlirləri hesabına xərclərinin ödənilməsini təmin edən rayonların sayının 6-dan 33-ə qalxmasını göstərmək olar».

Vergilər naziri qeyd edib ki, regional inkişaf proqramlarının icrası, dövlət büdcəsindən regionların maliyyələşdirilməsi zamanı görülən işlərin bölgələrdə qeydiyyatda olan vergi ödəyiciləri və yerli işçi qüvvəsindən istifadə edilməklə həyata keçirilməsi ötən il də yerli sahibkarlığın iqtisadi aktivliyinə səbəb olub. 2016-cı ildə yerli vergi ödəyicilərinin dövriyyələri 2015-ci illə müqayisədə 38,8 faiz artıb.

Ölkə Prezidentinin sərəncamı ilə təsdiq olunmuş «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri» və sərəncamdan irəli gələn məsələlərin həlli barədə danışan Fazil Məmmədov qeyd edib ki, dəyişikliklərin mühüm bir istiqaməti vergi yükünün azaldılması ilə bağlıdır.

Nazir qeyd edib ki, sahibkarlar da, öz növbəsində, fəaliyyətlərini şəffaf qurmalıdırlar: «Şəffaflıq birtərəfli qurulmur, biz qarşılıqlı etimada söykənən etibarlı partnyorluq münasibətlərinin tərəfdarıyıq».

Vergilər naziri «Vergi borclarının tənzimlənməsi haqqında» Qanun barədə qeyd edib ki, qanunun tətbiqi sahibkarlığın inkişafını stimullaşdırmaqla yanaşı, sahibkarların sərəncamında kifayət qədər sərbəst vəsaitlərin qalmasına, onların işgüzar fəaliyyətlərinin genişlənməsinə, ölkənin ticarət fəaliyyətində rolunun və iqtisadi aktivliyinin artmasına əlavə imkanlar yaradır və vergiləri vaxtında ödəmə potensialının yenidən bərpa olunmasını təmin edir.

Sonra vergilər naziri Fazil Məmmədov konfrans iştirakçıları tərəfindən qaldırılan məsələlər və vergi sahəsində verilən sualları geniş cavablandırıb, mövzu ətrafında maraqlı müzakirələr aparılıb.

# Regionlarda keçirilmiş görüşlərdə 3500-ə yaxın sahibkar iştirak edib

**2017-ci ilin yanvar ayının 1-dən qüvvəyə minmiş «Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında», «Nağd hesablaşmalar haqqında» və «Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında» qanunların regionlarda fəaliyyət göstərən sahibkarlara ətraflı şəkildə çatdırılması, vergi ödəyicilərinin üzərinə düşən öhdəliklərin izah edilməsi məqsədilə Vergilər Nazirliyi tərəfindən yanvarın 16-dan 29-dək regionlarda vergi ödəyiciləri ilə silsilə görüşlər keçirilib.**

Tədbirlərdə vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov, Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin, Ərazi vergi orqanları ilə iş üzrə departamentinin, Ərazi vergi departamentləri və idarələrinin rəhbərləri, habelə rayon icra hakimiyyəti başçılarının müavinləri iştirak ediblər.

Görüşlərdə iri vergi ödəyiciləri, ictimai iaşə, pərakəndə ticarət, mebel mağazaları, mobil rabitə obyektləri, aksizli mallar, tikinti materiallarının satışı ilə məşğul olan vergi ödəyiciləri, həmçinin mənzil-tikinti kooperativləri, istehsalçı şirkətlər, topdan satışla, eləcə də alkoqollu məhsulların istehsalı və satışı, iri bazarlar və şəbəkə supermarketlər, şadlıq sarayları, özəl tibbi xidməti, lizinq və sığorta şirkətləri və s. kateqoriyadan olan vergi ödəyiciləri iştirak ediblər.

Sahibkarlara qanunvericilikdə əksini tapmış yeni anlayışlar, yeni vergi bəyannamə və hesabat formaları barədə də məlumat və izahlar verilib. Bölgə sahibkarlarına bildirilib ki, dəyişikliklərin əsas məqsədi ölkədə sahibkarlığın və investisiyaların təşviqi, sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi yükünün azaldılması, sahibkarların hüquqlarının daha etibarlı qorunması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın səviyyəsinin yüksəldilməsi, nağdsız əməliyyatların həcminin artırılması, şəffaf vergi uçotunun qurulmasıdır.




Bölgələrdə keçirilən görüşlər sahibkarların qanunvericiliyə edilmiş dəyişikliklər barədə hərtərəfli məlumat əldə etmələri, anlaşılmayan məsələlərin tam təfərrüatlı formada onlara izah edilməsi ilə yanaşı, öz fəaliyyətlərini yeni tələblərə uyğun qurmaları, uçot sahəsində şəffaflığı təmin etmələri və vergi öhdəliklərini vaxtında yerinə yetirmələri baxımından maarifləndirici xarakter daşıyırdı. Sahibkarların diqqətinə bir daha çatdırıldı ki, Məcəlləyə edilmiş dəyişikliklərin böyük bir qismi vergi yükünün azalmasına, ölkədə daha əlverişli və səmərəli biznes mühitinin formalaşmasına zəmin yaradır. Bu baxımdan, sahibkarlar da yeni iqtisadi şəraitdən maksimum istifadə etməyə çalışmalıdırlar. Ölkəmizdə sahibkarlığın inkişafı, yeni fəaliyyət sahələrinin yaradılması vergi ödəyicilərinin sayının və gəlirlərinin, onların dövlət büdcəsinə ödədikləri vergilərin həcminin artmasına səbəb olacaq, bundan isə vətəndaşlarımız, bütövlükdə Azərbaycan qazanacaq.

**E.CƏFƏRLİ**

# Açıq dialoq həm sahibkarların, həm də vergi əməkdaşlarının işini asanlaşdırır




Xəbər verdiyimiz kimi, vergi qanunvericiliyində edilmiş əlavə və dəyişikliklərin sahibkarlara çatdırılması, onların məlumatlandırılması ilə bağlı yanvar ayının 16-dan 29-dək ölkəmizin regionlarında silsilə görüşlər keçirilmişdir.

Ərazi vergi orqanlarına yerləşdikləri Quba, Qəbələ, Zaqatala, Şamaxı, Sumqayıt, Lənkəran, Şirvan, Beyləqan, Göyçay, Yevlax, Şəmkir və Gəncə şəhərlərində təşkil olunmuş bu görüşlərdə ölkənin bütün rayonlarını təmsil edən 3500-ə yaxın vergi ödəyicisi, eləcə də müvafiq şəhər, rayon İcra Hakimiyyəti başçıları və ya onların iqtisadi məsələlər üzrə müavinləri iştirak etmişlər.

Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov həmin görüşlərdə çıxış edərək, Vergi Məcəlləsinə edilmiş əlavə dəyişikliklər, «Nağdsız hesablaşmalar haqqında» və «Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında» qanunların tələbləri, vergi ödəyicilərinin üzərinə düşən öhdəliklər barədə vergi ödəyicilərinə ətraflı məlumat vermişdir.

Bununla yanaşı, yerli vergi orqanlarının əməkdaşları üçün ayrıca seminar-müşavirələr keçirilmiş, vergi qanunvericiliyində və vergi inzibatçılığında aparılmış dəyişikliklərin onlar tərəfindən necə mənimsənildiyi yoxlanılmışdır.

### Vergi qanunvericiliyində edilmiş dəyişikliklər sahibkarlar üçün əlavə imkanlar yaradır

Görüşlərdə vurğulanmışdır ki, vergi qanunvericiliyində edilmiş əlavə və dəyişikliklərin əsas məqsədi ölkədə kiçik və orta sahibkarlıq subyektlərinin inkişafının sürətləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, iş adamlarının fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılması, onların qanuni hüquqlarının daha etibarlı şəkildə qorunması, vergi yükünün azaldılması, vergi orqanları ilə vergi ödəyiciləri arasında qarşılıqlı etimad səviyyəsinin yüksəldilməsi, şəffaf partnyorluq əlaqələrinin, faydalı əməkdaşlığın genişləndirilməsindən ibarətdir. Sahibkarları daha fəal olmağa çağıran S.Ələkbərov onların sayının və gəlirlərinin artmasında ölkə başçısının təsdiq etdiyi qərarların, sənədlərin mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Qeyd edilmişdir ki, vergi qanunvericiliyindəki yeniliklər həm sahibkarların, həm də yeni sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərin işini asanlaşdırmağa xidmət edir. Ümumilikdə 201 dəyişiklikdən 123-ü vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi sahəsində uçot və qeydiyyatın asanlaşdırılması, 34-ü vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, 8-i isə vergi yükünün azaldılması, azadolmalar və güzəştlər barədədir.





**Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərin əsas mahiyyətinin vergi ödəyicilərinə izah olunması onların qanunvericiliyin tələblərini daha dəqiq yerinə yetirməsinə imkan verir**

### Prezidentin humanist qərarından vergi ödəyiciləri maksimum faydalanmalıdırlar

Sahib Ələkbərov qeyd etmişdir ki, aparılan islahatların, qanunvericiliyin təkmilləşdirilməsi vergi ödəyicilərinin öz fəaliyyətini daha da genişləndirmələrinə, daha çox qazanmalarına və nəticədə daha çox vergi ödəmələrinə hesablanıb. Məlum olduğu kimi, dövlət başçısının qərarına əsasən keçən ildən vergi yoxlamaları istisna olmaqla bütün yoxlamalar iki il müddətinə dayandırılıb. Vergi orqanları da öz növbələrində yoxlamaların sayını iki dəfədən də çox azaldıb. Bu, vergi orqanları tərəfindən sahibkarlarla qarşılıqlı etimadın gücləndirilməsinə doğru atılmış əhəmiyyətli addımlardan biridir. Vergi sistemində aparılan islahatlar nəticəsində vergi orqanlarının sahibkarlara yanaşması da dəyişdirilib, vergi orqanlarının strukturlarında yeni, Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarələri və şöbələri yaradılıb.

İri vergi ödəyicilərinə və kiçik sahibkarlara yanaşma da fərqli olacaq. İri vergi ödəyicilərində vergi yoxlamaları və nəzarəti tədbirlər risklərə əsaslanan sənədlərə uyğun olaraq daha çevik şəkildə aparılacaq. Kiçik sahibkarlara münasibətdə isə yoxlamalara və kütləvi operativ nəzarət tədbirlərinə deyil, daha sadə bəyannamələrin təqdim olunmasına və işlərin partnyorluq müstəvisində qurulmasına üstünlük veriləcək. Vergi Məcəlləsində siyahısı göstərilən bir sıra kiçik vergi ödəyiciləri isə ümumiyyətlə bəyannamə təqdim etməyəcək, onlar kiçik və sabit məbləğdə vergi ödəməklə öz öhdəliklərini yerinə yetirmiş olacaqlar.

Sahib Ələkbərov dövlət başçısının təşəbbüsü ilə qəbul edilmiş «Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında» Qanunun əhəmiyyətinə toxunaraq bildirmişdir ki, ilk mərhələdə 96 mindən çox vergi ödəyicisinin 727 milyon manat həcmində faiz və maliyyə sanksiyaları üzrə vergi borcu artıq silinmişdir. Bu Azərbaycanın vergi tarixində ən böyük borc silinməsi hesab olunur. Qanun daha 26.700 vergi ödəyicisinin 357 milyon manat həcmində faiz və maliyyə sanksiyaları üzrə vergi borcunun silinməsi üçün də imkan yaradır. Əgər maliyyə sanksiyaları üzrə borcu olanlar yanvar ayında həmin borcun 30 faizini ödəyərsə qalan 70 faizi, fevral ayında borcun 50 faizini ödəyərsə qalan 50 faizi, mart ayında borcun 70 faizini ödəyərsə borcun 30 faizi silinəcək. Qanunla müəyyənləşdirilmiş müddət keçdikdən sonra isə borclu vergi ödəyiciləri faiz və maliyyə sanksiyalarını tam həcmdə ödəməli olacaqlar. Ona görə də vergi ödəyiciləri Prezidentin bu humanist qərarından maksimum yararlanmaq üçün tələsməlidirlər.

### Nağdsız ödəniş qaydaları həm sahibkarların, həm də dövlətin mənafeyinə uyğundur

Vergi ödəyiciləri ilə görüşlər zamanı Sahib Ələkbərov öz çıxışlarında «Nağdsız hesablaşmalar haqqında» Qanuna xüsusi yer ayıraraq bildirmişdir ki, «hər kəs bu qanunun tələblərinə ciddi şəkildə əməl etməlidir. Nağdsız ödənişlərin artması iqtisadiyyatda şəffaflığın artmasına, neqativ halların aradan qaldırılmasına, vergi daxilolmalarının artmasına şərait yaradacaq. İndi dünyanın əksər ölkələrinin vətəndaşları, vergi ödəyiciləri nağd ödənişlərdən daha az istifadə etməyə çalışırlar. Çünki nağdsız ödənişlər həm dövlət, həm də sahibkarlar üçün ən sərfəli ödəniş variantı hesab olunur. Biz də nağdsız ödənişlərin iqtisadiyyata gətirdiyi üstünlüklərdən maksimum faydalanmağa çalışmalıyıq. Bu, həm qanunun, həm də zamanın tələbidir.

### Proseslərin yüksək səviyyədə elektronlaşdırılması ən xırda qanun pozuntusunu belə aşkar etməyə imkan verir

Sahibkarların nəzərinə çatdırılmışdır ki, şəffaf işləyən vergi ödəyiciləri üçün artıq «Yaşıl dəhliz» fəaliyyətə başlamışdır. Onlarda yoxlama və nəzarət tədbirləri aparılmayacaq: «Bununla yanaşı, aydın məsələdir ki, sahibkar qanunu pozduqda, qeyri-qanuni əməllərə əl atdıqda ona qarşı qanunda nəzərdə tutulmuş müvafiq tədbirlər tətbiq olunur. Sahibkar şəffaf işlədiyi təqdirdə heç kim gəlib onun qapısını döyə bilməz. Buna görə də hər kəs öz işini qanunlara ciddi şəkildə riayət etməlidir.

### Vergi ödəyiciləri bilmək istəyirlər ki...

***Görüşlər zamanı Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər barədə vergi ödəyicilərini maraqlandıran suallara Vergilər Nazirliyinin mütəxəssisləri tərəfindən ətraflı cavablar verilmişdir.***

Topdan və pərakəndə ticarətlə məşğul olan sahibkarlar daha çox ***Vergi Məcəlləsində elektron qaimə-fakturalarla bağlı dəyişikliklərə*** aydınlıq gətirilməsini xahiş etmişlər. Bu məsələ ilə bağlı sahibkarların diqqətinə çatdırılmışdır ki, Məcəlləyə topdan və pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərini fərqləndirən meyarları nəzərdə tutan anlayışlar, sahibkarlıq fəaliyyəti subyektləri arasında malların, işlərin və xidmətlərin təqdim edilməsi ilə bağlı elektron qaimə-fakturanın təqdim olunmasına dair maddələr daxil edilmişdir. ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən aylarında 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 1 aprel 2017-ci il tarixdən, bütün digər vergi ödəyiciləri tərəfindən isə 1 yanvar 2018-ci il tarixdən malların, işlərin və xidmətlərin alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara elektron qaimə-faktura təqdim edilməlidir. Bu dəyişiklik sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşməsi prosedurunun sadələşməsinə, operativliyin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına və s. xidmət edir.

***Kənd təsərrüfatında vergi güzəştlərinin tətbiqi*** ilə bağlı fermerlərin diqqətinə çatdırılmışdır ki, kənd təsərrüfatı məhsullarının istehsalçıları 1999-cu ildən, torpaq vergisi istisna olmaqla, digər vergilərin ödənilməsindən azad edilmişdir. Lakin bəzən bu güzəştlərin əhatə dairəsini dəqiq təyin etməklə bağlı suallar ortaya çıxdığından, artıq qanunvericilikdə istehsal və emal üzrə sahələri arasında dəqiq sərhədlər müəyyənləşdirilmişdir. Beləliklə, heyvanların və quşların yetişdirilməsi, bəslənməsi, diri şəkildə olarkən onlardan məhsulların əldə edilməsi, bitkiçilik məhsullarının becərilməsi kənd təsərrüfatı məhsullarının istehsalı hesab olunur. Həmin növ məhsulların ilkin formasının dəyişdirilməsi, hər hansı kimyəvi təsirə məruz qalması və tərkibinin dəyişdirilməsi, konservləşdirilməsi fərdi təsərrüfat məhsulları istehsalına aid edilmir və ümumi qaydada vergiyə cəlb olunur.

***Nağdsız hesablaşmaların hansı qaydada həyata keçiriləcəyi, satılan və ya alınan mallara nağd qaydada ödəniş üçün limitin tətbiq olunub-olunmayacağı*** sahibkarların ən çox maraqlandıqları suallardandır. İş adamlarının diqqətinə çatdırılmışdır ki, «Nağdsız hesablaşmalar haqqında» Qanuna əsasən, ƏDV məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında 200 min manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri 30 min manatdan, digər vergi ödəyiciləri isə 15 min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlərini yalnız nağdsız qaydada həyata keçirməlidirlər. İnzibati cərimələr, maliyyə sanksiyaları, vergilər, gömrük rüsumları və yığımları, lizinq əməliyyatları üzrə borcların ödənilməsi və kreditlərin verilməsi, sığorta ödənişləri, stasionar telefon xidmətləri və kommunal xərclər, vergi ödəyicilərinə faizsiz pul vəsaitlərinin (vergi ödəyicisi olmayan şəxslərin tərəfindən pul vəsaitlərinin verilmə halları istisna olmaqla) və digər ayırmaların ödənilməsi və qaytarılması və qanunda nəzərdə tutulan digər ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.

***Torpaq sahələrinin satışı əməliyyatlarının rəsmiləşdirilməsi*** zamanı bu əməliyyatdan yaranan vergi öhdəliyi barədə suallara aydınlıq gətirilərkən bildirilmişdir ki, 1 yanvar 2017-ci il tarixədək qüvvədə olan qanunvericiliyə əsasən, torpaq sahələrinin satışı ümumi qaydada mənfəət və gəlir vergisinə cəlb edilir. Bu əməliyyatların rəsmiləşdirilməsi zamanı qiymətlərin düzgün göstərilməməsi, alış və xərc sənədlərinin olmaması bu torpaqları təqdim edən şəxsin vergi öhdəliyinin dəqiq müəyyən edilməsində çətinliklər yaradır. Bu məqsədlə Vergi Məcəlləsinə torpaq sahələrinin sadələşdirilmiş qaydada vergiyə cəlb edilməsini nəzərdə tutan maddələr daxil edilmişdir. Dəyişikliklərə əsasən mülkiyyətində olan torpaq sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər sadələşdirilmiş vergi ödəyicilərinə aid edilmişdir. Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı, yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduqları torpaq sahələrinə görə torpağın hər kvadrat metri üçün 0,5 manat müəyyən edilmişdir. Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlara görə vergi zona əmsalına və 1,5 yüksəldici əmsala vurulmaqla müəyyən edilir.

***Könüllü vergi açıqlaması sisteminin tətbiqi*** ilə maraqlanan vergi ödəyicilərinin diqqətinə çatdırılmışdır ki, aparılan səyyar vergi yoxlamalarının başa çatmasına baxmayaraq vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı məlumat əsasında vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsinin (azaldılmasının) əlamətləri müəyyən edildikdə vergi qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda növbədənkənar vergi yoxlaması keçirilə bilər. Bu zaman keçirilən vergi yoxlaması ilə büdcədən yayındırılmış vergi məbləğləri dövlət büdcəsinə bərpa edilməklə, həmin yayındırılmış məbləğə 50 faiz miqdarında maliyyə sanksiyası tətbiq edilir. Məcəlləyə təklif edilən könüllü vergi açıqlaması ilə bağlı müddəaların tətbiqi vergi ödəyicilərini belə sanksiyalardan azad edəcəkdir.

Könüllü vergi açıqlaması vergi orqanı tərəfindən keçirilən səyyar vergi yoxlaması başa çatdıqdan sonra yoxlama ilə aşkar olunmamış səhvlərin, o cümlədən vergi məbləğlərinin düzgün hesablanmaması hallarının vergi ödəyicisi tərəfindən könüllü olaraq bəyan edilməsini nəzərdə tutur. Bu da vergi ödəyicisinə könüllü vergi açıqlaması barədə səyyar vergi yoxlamasının əhatə etdiyi dövrlərə görə bəyannamə verilməsi hüququnu verir. Həmin bəyannamə ilə könüllü açıqlanmış vergi məbləğlərinə görə vergi ödəyicisinə faiz hesablanmır və maliyyə sanksiyası tətbiq edilmir.

### İş adamları görüşlərin onların işinə müsbət təsir edəcəyinə inanırlar

***Vergi ödəyicisi Yaşar Gözəlov:*** «Qanunçuluqda edilmiş dəyişikliklərlə bağlı mənə bir çox məsələlər aydın deyildi və çoxlu suallar yaranmışdı, Vergilər Nazirliyinin təşkil etdiyi bu görüş zamanı vergi orqanı əməkdaşları vergi ödəyicilərinə, eləcə də mənə aydın olmayan suallara aydınlıq gətirdilər. Məndə əminlik yarandı ki, Vergi Məcəlləsinə əlavə və dəyişikliklərin edilməsi ölkə sahibkarlarının vergi yükünü azaltmaqla yanaşı, onların vergi orqanları ilə partnyor münasibətlər qurmasına, şəffaflığın təminatına öz töhfəsini verəcək. Yoxlamaların dəqiq risk qrupları üzrə aparılması da yersiz araşdırmaların aradan qaldırılmasına gətirib çıxaracaq».

***Bələdiyyə üzvü Mirməhəmməd Əsgərov:*** «Vergi Məcəlləsinə edilən bütün dəyişiklikləri Vergilər Nazirliyinin rəsmi saytından oxusam da, bəzi detalların aydınlaşdırılmasına ehtiyac hiss edilirdi. Məsələn, torpaq vergisi, torpaqların alğı-satqısı zamanı vergilərin tətbiqi ilə bağlı vətəndaşlar bələdiyyələrə çoxlu sayda suallar ünvanlamışdırlar. Biz bu sualların cavablarını Vergilər Nazirliyinin rəsmi şəxslərinin sadə, anlaşılan şərhlərindən dəqiq öyrənmək imkanı qazandıq. Çünki bəzi dəyişikliklərin vergi ödəyicilərinə sadə dildə izah edilməsi vacibdir. Hesab edirəm ki, belə tədbirlərin keçirilməsi Məcəllədə aydın olmayan məqamların aydınlaşmasına və vergi ödəyicilərinin vergi qanunvericiliyini daha yaxından mənimsəməsinə imkan verir».

***Sahibkar Yasin Əliyev:*** «Yüzlərlə sahibkarın iştirak etdiyi bu görüşdə iş adamlarını maraqlandıran suallar olduqca çox idi. Suallarımızın hamısı ətraflı və dəqiq izah edildi və qaranlıq qalan məqamlar konkret misallarla aydınlaşdırıldı. Ərazi vergi orqanlarında da bu cür tədbirlər keçirilir. İstərdik ki, vergi orqanları belə tədbirləri müntəzəm keçirsin: çünki bu cür səmimi ünsiyyət şəraitində bütün anlaşılmaz məqamlar aydınlaşır. Belə açıq dialoq həm sahibkarların, həm də vergi əməkdaşlarının işini asanlaşdırır».

**Rəşad SADIQOV**

# 58-ci xidmət mərkəzi istifadəyə verildi

**Yanvarın 25-də 8 saylı Ərazi Vergilər İdarəsinin əhatə dairəsinə daxil olan Ağcabədi rayonunda vergi ödəyicilərinə xidmət mərkəzinin açılışında Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxsləri, rayon icra hakimiyyətinin, sahibkarların və ictimaiyyətin nümayəndələri iştirak**

### Müasir standartlara uyğun...

Açılış mərasimində iştirak edən vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov tədbir iştirakçılarının nəzərinə çatdırmışdır ki, vergilərin könüllü ödənilməsi sisteminin gücləndirilməsi, sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması, vergi ödəyicilərinə göstərilən xidmətlərin genişləndirilməsi və daha əlçatan olması məqsədilə Vergilər Nazirliyi tərəfindən regionlarda, xüsusilə vergi orqanı olmayan iri şəhər və rayonlarda vergi ödəyicilərinə xidmət mərkəzləri yaradılır. Hazırda respublikada müasir standartlara cavab verən 57 belə xidmət mərkəzi uğurla fəaliyyət göstərir. Ağcabədidəki 58-cidir. Gələcəkdə də bəzi rayonlarda belə xidmət mərkəzlərinin vergi ödəyicilərinin ixtiyarına verilməsi nəzərdə tutulur.

Bu mərkəz yerli sahibkarları maraqlandıran vergi ilə bağlı məsələlərin operativ şəkildə həll olunmasında mühüm rol oynayacaq. Müasir kompüterlər və avadanlıqlar, sürətli internet sistemi ilə təchiz edilmiş mərkəzin əsas məqsədi həmin regionda fəaliyyət göstərən vergi ödəyicilərinə müasir standartlara uyğun vergi xidmətləri göstərməkdir.

Ölkə başçısı İlham Əliyevin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri» və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamını xatırladan S.Ələkbərov bildirmişdir ki, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması məqsədilə vergi sistemində islahatlar davam etdirilir, ölkədə könüllü əməletmə səviyyəsinin yüksəldilməsi ilə bağlı ciddi tədbirlər görülür. Bu istiqamətdə görülən işlər çərçivəsində intizamlı vergi ödəyiciləri üçün «Yaşıl dəhliz» prinsipi əsasında şəffaf vergi partnyorluğu münasibətlərinin qurulması, onlara göstəriləcək xidmətlərin yüksək səviyyədə təşkili xüsusi əhəmiyyət daşıyır.



Xidmət mərkəzi vergi ilə bağlı yerli sahibkarları maraqlandıran məsələlərin operativ şəkildə həll olunmasında mühüm rol oynayacaq

Yeni istifadəyə verilən xidmət mərkəzində sahibkarlara vergi uçotuna alınmaq, vergi qanunvericiliyinin tətbiqi, vergi bəyannamələrinin tərtib edilməsi və göndərilməsi, vergi ödəyiciləri ilə vergi orqanı arasında elektron sənəd mübadiləsinin aparılması kimi xidmətlər göstəriləcək, müraciət edənlərə büdcəyə olan borclarını öyrənməyə və öz şəxsi vərəqələrinə nəzər salmaq imkanı yaradılacaq, sahibkarlıq fəaliyyətinə yeni başlayanlar üçün təlimlər təşkil olunacaq. Sabit vergi ödəyən fiziki şəxslər sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbzi də xidmət mərkəzindən əldə edə biləcəklər.

Ağcabədi şəhərində açılmış vergi ödəyicilərinə xidmət mərkəzinin xidməti zalında normativ sənədlər və bukletlərdən ibarət məlumat guşəsi yaradılmış, vergiyə aid sənədlərin elektron formatda ayrıca kompüterdə yerləşdirilməsi təmin edilmişdir. Bundan başqa, xidməti istifadə və müvafiq ərazi vergi orqanı ilə fasiləsiz rabitə üçün telefon xətti və faks mövcuddur. Vergi sahəsində tələb olunan məlumat bazası ilə təchiz olunmuş kompüterlər vergi ödəyicilərinin istifadəsinə verilmişdir. Xidmət mərkəzində vergi ödəyicilərinə göstərilən bütün xidmətlər ödənişsizdir.

8 saylı ƏVİ-nin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu şöbəsinin rəhbəri Səməd Əliyevin sözlərinə görə, xidmət mərkəzində sahibkarlara vergi qanunvericiliyi və onun tətbiqi barədə məlumat və izahatların verilməsi işinə xüsusi diqqət yetirilir, vergi ödəyicilərinə vergilərin hesablanması və ödənilməsi qaydaları, vergi ödəyicilərinin və vergi orqanlarının hüquq və vəzifələri, vergi qanunvericiliyinin tətbiqi məsələləri, vergi bəyannamələrinin təqdim olunma müddətləri, vergi güzəştlərindən istifadə edilməsi haqqında ətraflı məlumatlar verilir: «Burada vergi ödəyiciləri ərizə, arayış və digər blankların nümunəvi tərtibat formaları ilə təmin edilir, sənədləri düzgün tərtib etmələri üçün onlara lazımı kömək göstərilir».

### Vergi ödəyicilərinin işi asanlaşır

***Vergi ödəyicisi Mübariz İbrahimov:*** «Bu mərkəzdə elektron və digər xidmətlərin göstərilməsi üçün lazım olan bütün şərait yaradılıb. Artıq vergi məsələləri ilə bağlı Beyləqana - 8 saylı Ərazi vergilər idarəsinə getməyimə gərək yoxdur. Mərkəzdə bəyannamə və digər hesabat sənədlərini tərtib edə və lazımi izahatlar ala biləcəyik. Bizə yaratdığı əlverişli şəraitə görə Vergilər Nazirliyinin rəhbərliyinə öz minnətdarlığımı çatdırmaq istəyirəm».

***Vergi ödəyicisi Həbib Yusifov:*** «Vergi orqanlarına, əsasən, vergi qanunvericiliyi və elektron xidmətlərlə bağlı müraciət edirəm. Bütün müraciətlərimə diqqətlə yanaşılır, sorğular təfərrüatlı şəkildə cavablandırılır. Ağcabədidə yerləşən xidmət mərkəzində işlərimi daha asanlıqla həll edə biləcəyəm. Burada göstərilən xidmətlər işimizi daha da asanlaşdırır».

***Vergi ödəyicisi Xanlar Qasımov:*** «Vergi ödəyicilərinə xidmət mərkəzləri regionlarda sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Mərkəzdə sahibkarlıq fəaliyyətinə yeni başlamaq istəyən şəxslərə zəruri kömək göstəriləcək. Bu, iş görmək istəyən adamları sevindirir, onların fəaliyyətinin genişlənməsinə şərait yaradır».

**Rəşad SADIQOV**

## VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

"Vergi ödəyicilərinin 2017-ci il 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, vergilərin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ödənilməməsinə görə hesablanmış faizlər üzrə 2017-ci il 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud olan borclar, eləcə də vergi orqanları tərəfindən Vergi Məcəlləsinin 58.7 maddəsinə əsasən vergi ödəyicilərinə tətbiq edilən maliyyə sanksiyaları üzrə yaranmış, 2017-ci ilin 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud olan borclar tamamilə silinir.

Vergi ödəyicilərinə tətbiq edilmiş digər maliyyə sanksiyaları üzrə yaranmış vergi borcları isə aşağıdakı qaydada silinə bilər:

- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar ayı ərzində həmin maliyyə sanksiyalarının 30 faizi ödənilərsə, qalan 70 faizi silinir;**
- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-fevral ayları ərzində həmin maliyyə sanksiyalarının 50 faizi ödənilərsə, qalan 50 faizi silinir;**
- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-mart ayları ərzində həmin maliyyə sanksiyalarının 70 faizi ödənilərsə, qalan 30 faizi silinir.**

**Maliyyə sanksiyasının məbləğini 143490 büdcə təsnifatı kodu üzrə ödəməyiniz xahiş olunur**

Əlavə məlumat almaq istəyən vergi ödəyiciləri Vergilər Nazirliyinin 195 Çağrı Mərkəzinə, nazirliyin rəsmi internet saytına (www.taxes.gov.az), vergi ödəyicilərinə xidmət mərkəzlərinə, yaxud qeydiyyatda olduqları vergi orqanlarına müraciət edə bilərlər.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## RƏQƏMLƏRİN DİLİ İLƏ

Ötən il...

- Ölkəmizə gələn turistlərin sayında əvvəlki ilə nisbətən **11** faiz artım olub.
- Azərbaycanda kompüter və elektron məhsulları, elektrik avadanlıqları sahəsində **171 milyon** manatlıq məhsul istehsal olunub.
- İnformasiya və rabitə müəssisələri tərəfindən hüquqi və fiziki şəxslərə göstərilən **1599,6 milyon** manatlıq xidmətlərin **72,4** faizi əhali sektoruna aid olub.
- Azərbaycanda **880** kilometr uzunluğunda ümumi istifadədə olan yeni avtomobil yolları yenidən qurulub.
- Əsas kapitala **14,19 mlrd** manat vəsait yönəldilib.

# Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı müzakirələr davam etdirilir

**Ötən həftə «Hilton Baku» hotelində «Baker Tilly Azərbaycan» şirkətinin təşkilatçılığı ilə Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə həsr olunmuş seminar keçirilmişdir. Tədbirdə Vergilər Nazirliyinin və 100-dən artıq sahibkarlıq subyektinin nümayəndələri iştirak etmişlər.**

«Baker Tilly Azərbaycan» şirkətinin partnyoru Samir Vəliyev bildirmişdir ki, Vergi Məcəlləsinə xeyli dəyişikliklər edilib və bununla əlaqədar olaraq ölkədə fəaliyyət göstərən bir çox şirkətlər Vergilər Nazirliyi ilə birgə maarifləndirmə tədbirləri çərçivəsində görüşlər keçirirlər. Zamanın çağırışına uyğun olaraq Vergi Məcəlləsinə mütəmadi olaraq dəyişiklik edildiyini diqqətə çatdıran şirkət rəsmisi əlavə etmişdir ki, əsas məqsəd ölkədə sahibkarlığın daha da inkişaf etdirilməsi, vergi bazasının artırılması, vergi ödəyicilərinin qanunvericiliyə əməletmə tədbirlərinin gücləndirilməsi, investisiyaların təşviqi və ixracın stimullaşdırılmasıdır.

Sonra şirkətin vergi və hüquq departamentinin baş mütəxəssisi Azər Əkbərov Vergi Məcəlləsinə edilən dəyişikliklərlə bağlı təqdimatla çıxış etmişdir. Hər bir normativ-hüquqi akt kimi Vergi Məcəlləsinin də ümumi və xüsusi hissədən ibarət olduğunu deyən mütəxəssis ümumi hissəyə edilmiş dəyişikliklərlə Vergi Məcəlləsinə yeni əsas anlayışların daxil edildiyini, yeni transfer qiymətqoyma maddəsinə əlavələr olunduğunu, vergi ödəyicilərinin və vergi orqanlarının hüquq və vəzifələrinin artırıldığını, məcəlləyə uçotda olmayan qeyri-rezidentlərin vergi agenti maddəsinin əlavə edildiyini, qeydiyyat qaydalarında dəyişikliklər olduğunu diqqətə çatdırmışdır: «Məcəllənin ümumi hissəsinə əlavə edilən vergi orqanları tərəfindən transfer qiymətlərinin müəyyənləşdirilməsinin əsas məqsədi qarşılıqlı əlaqəli müəssisələr arasında aparılan əməliyyatlarda formalaşan qiymətlərin müstəqil müəssisələr arasında analoji şərtlərdə formalaşa biləcək qiymətlərə uyğunluğunun təmin edilməsi və hesablanmış transfer qiymətləri əsas götürülməklə vergilərin hesablanması və ya bəyan edilmiş vergi məbləğlərinə düzəliş edilməsindən ibarətdir. Yanvarın 1-dən etibarən transfer qiymətləri hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq təqvim ili ərzində Vergi Məcəlləsinin 14-1.2-ci maddəsində göstərilən şəxslər arasında təqvim ili ərzində yalnız ümumi dəyəri hər bir şəxs üzrə 500 min manatdan artıq olan əməliyyatlara tətbiq olunur və mənfəət vergisinin məqsədləri üçün istifadə edilir».

Vergi yoxlamalarına aid müddəalarda edilmiş dəyişikliklərə aydınlıq gətirən A.Əkbərov kameral vergi yoxlamasının vergi bəyannaməsinin təqdim edildiyi vaxtdan 30 iş günü müddətində aparılmasını və bu müddət başa çatdıqdan sonra həmin bəyannamə üzrə yenidən kameral vergi yoxlamasının keçirilməsini qadağan edən müddəanın Vergi Məcəlləsinin 37-ci maddəsinə daxil edildiyini vurğulamışdır: «Kameral vergi yoxlaması başa çatdıqdan sonra vergi orqanı verginin hesablanması üçün əlavə sənəd və ya mənbəyi məlum olan digər məlumat aşkar etdikdə, vergi ödəyicisinə dəqiqləşdirilmiş vergi bəyannaməsinin 10 iş günü müddətində təqdim olunması üçün müəyyən edilmiş forma üzrə müvafiq bildiriş göndərəcəkdir. Eyni zamanda, elektron auditin vergi orqanının qərarına əsasən Vergilər Nazirliyinin müəyyən etdiyi qaydada aparılması ilə bağlı Vergi Məcəlləsinə 38.8-ci maddə daxil edilmişdir. Bundan başqa, vergi nəzarətinin həyata keçirilməsi və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən daxil olmuş sorğuların icrası ilə bağlı zəruri sənədlər və ya onların lazımi qaydada təsdiq edilmiş surətləri vergi orqanının müraciətinə əsasən 20 gün əvəzinə 10 iş günü müddətində təqdim edilməsi barədə də dəyişiklik edilmiş, operativ vergi nəzarətinin əhatə etdiyi məsələlərin dairəsi genişləndirilmişdir».

Məcəllədə əksini tapan yeni maliyyə sanksiyaları barədə də iştirakçıları məlumatlandıran A.Əkbərov bildirmişdir ki, Vergi Məcəlləsinin 14-1.2-ci maddəsində göstərilən şəxslər arasında ümumi dəyəri hər bir şəxs üzrə 500 min manatdan artıq olan əməliyyatlara dair arayışın hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec təqdim edilməsinə görə isə maliyyə sanksiyası 500 manat təşkil edir: «Vergi Məcəlləsinə daxil edilmiş 58.7-1-ci maddəyə əsasən, «Nağdsız hesablaşmalar haqqında» Qanunla nağd qaydada həyata keçirilməsi məhdudlaşdırılan əməliyyatların nağd qaydada həyata keçirilməsinə görə malı, işi, xidməti təqdim edən vergi ödəyicisinə qanunvericilik pozulmaqla aparılan əməliyyatının ümumi məbləğinin təqvim ili ərzində birinci dəfə yol verildikdə 10 faiz, ikinci dəfə 20 faiz, üç və daha çox dəfə yol verildikdə isə 40 faiz miqdarında maliyyə sanksiyasının tətbiqi edilməsi nəzərdə tutulur. Malların alışını və ya mədaxilini təsdiq edən sənədlərdən ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala birinci dəfə yol verildikdə alınmış malların 10 faizi, ikinci dəfə yol verildikdə 20 faizi, üç və daha çox dəfə yol verildikdə isə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq olunacaq».

Vergi Məcəlləsinin xüsusi hissəsinə edilən dəyişikliklər barədə məlumat verən mütəxəssisin sözlərinə görə, qeyri-rezidentin gəlirindən ödəmə mənbəyində vergi tutulması maddəsi əlavə olunmuş, ƏDV, aksiz, torpaq və sadələşdirilmiş vergi növlərində dəyişikliklər edilmişdir.

Tədbirdə çıxış edən Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Nicat İmanov qeyd etmişdir ki, ölkə başçısı tərəfindən 4 avqust 2016-cı il tarixdə vergi sahəsində inzibatçılığın təkmilləşdirilməsi ilə bağlı imzalanmış sərəncamla Vergilər Nazirliyi qarşısında bir sıra vəzifələr qoyulmuşdur: «Həmin vəzifələrdən biri də 3 ay müddətində sərəncamda göstərilən 21 istiqamətdən irəli gələrək qanunvericilikdə və inzibatçılıqda təkmilləşmələrin aparılmasıdır. Bildiyiniz kimi, Vergi Məcəlləsinə 201 bənddən ibarət dəyişiklik olunmuş, o cümlədən Məcəlləyə 115 yeni maddə daxil edilmiş, 3 maddə ləğv olunmuş, 83 maddəyə dəyişiklik edilmişdir. Bütün bu dəyişikliklər vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsinə, vergi ödəyicilərinə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsinə, vergi nəzarətinin artırılmasına, vergi yükünün azaldılmasına istiqamətlənmişdir. Bununla yanaşı, vergi qanunvericiliyi ilə bilavasitə bağlı olan digər normativ hüquqi aktlara da dəyişiklik edilmiş, yeni «Nağdsız hesablaşmalar haqqında» qanun qəbul edilmişdir. Bu Qanunla nağdsız ödənişlərin formaları müəyyən olunmuşdur. Belə ki, nağdsız ödənişlərin üç forması - bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə, ödəniş terminalları ilə və birbaşa nağd qaydada satıcının bank hesabına köçürülməklə həyata keçirilən hesablaşmalar kimi müəyyən olunmuşdur».

Vergi Məcəlləsinə edilmiş dəyişikliklər vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsinə, göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsinə, vergi inzibatçılığının təkmilləşdirilməsinə və nəzarətinin artırılmasına, vergi yükünün azaldılmasına istiqamətlənmişdir

Bildirilmişdir ki, qanunla ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında 200 min manatdan artıq olan ticarət və ya ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği 30 min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği 15 min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir: «Qanunun 3.4-cü maddəsi Qanunun 3.3-cü maddəsinin müddəalarından asılı olmayaraq ödənişlərin tam şəkildə nağdsız qaydada həyata keçirilməli olduğunu ehtiva edir. Bura vergilərin, gömrük rüsumları və yığımların, sığorta ödənişlərinin, stasionar telefon xidmətlərinin və kommunal xərclərin ödənilməsi, dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsi və digər bir sıra qanunda nəzərdə tutulan ödəmələr aiddir.

Qanunun 3.5-ci maddəsi isə vergi ödəyiciləri tərəfindən vergi ödəyicisi olmayan fiziki şəxslərdən kənd təsərrüfatı məhsullarının istehsalçılarından kənd təsərrüfatı məhsullarının, əlvan və qara metal qırıntılarının, utilizasiya və digər məqsədlər üçün kağız, şüşə və plastik məmulatların və utilizasiya məqsədləri üçün işlənmiş şinlərin qəbulunun nağd qaydada satın alına bilməsini özündə ehtiva edir».

Vergi Məcəlləsinə edilən dəyişikliklərin hər birinin xüsusi əhəmiyyət daşıdığını qeyd edən baş direktor müavininin sözlərinə görə, bu dəyişikliklər içərisində elektron qaimə-fakturanın tətbiqi olduqca önəmlidir: «Bu, vergi ödəyicilərinin inzibatçılıq xərclərinin azaldılmasında, məlumat mübadiləsinin çevikliyinin artırılmasında və aparılan əməliyyatlarda avtomatlaşdırılma və şəffaflıq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Vergi Məcəlləsinə edilən dəyişikliklərə aid keçid müddəalarına əsasən, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən aylarında 200 min manatdan artıq olan ticarət və ya ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim olunmuş mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il 1 aprel tarixindən, bütün digər vergi ödəyiciləri tərəfindən isə 2018-ci il 1 yanvar tarixindən malların (işlərin, xidmətlərin) alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara (malların, işlərin, xidmətlərin sifarişçisinə) elektron qaimə-faktura təqdim edilməlidir».

Daha sonra Vergilər Nazirliyinin nümayəndələri sahibkarları maraqlandıran sualları cavablandırmışlar.

**Aytən NƏBİYEVA**

# Sabit vergi uçot sistemində dəqiqliyə xidmət edəcək

**Bakıda Kiçik sahibkarlıqla iş departamentində vergi öhdəliklərini aylıq sabit vergi şəklində ödəyəcək bir qrup vergi ödəyicisi ilə keçirilmiş görüş sadələşdirilmiş vergi üzrə sabit verginin ödənilməsi haqqında qəbzin (patentin) təqdim edilməsinə həsr olunmuşdur.**

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədov təqdimatla çıxış edərək bildirmişdir ki, 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş «Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanun milli vergi qanunvericiliyində bir sıra mühüm yeniliklərin tətbiqini nəzərdə tutur ki, onlardan biri də fərdi əməklə məşğul olan şəxslərlə bağlıdır: bu şəxslər vergi öhdəliklərini aylıq sabit vergi şəklində ödəyəcəklər.

Sabit vergi fərdi şəkildə fəaliyyət göstərən fiziki şəxsin, gəlirindən və dövriyyəsindən asılı olmayaraq ödədiyi dəyişilməz vergi məbləğidir. Bu vergi kiçik həcmdə gəlirlərə malik, muzdlu işçi cəlb etmədən müəyyən fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslərə aid edilir:

- toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcı, çalğıçı, rəqqas, aşıq, məzhəkəçi fəaliyyəti ilə məşğul olanlar;
- fərdi foto, audio-video xidmətləri göstərənlər;
- çəkməçi, pinəçi, saatsaz, dayə, fərdi sürücü, ev təsərrüfatında təmizlikçi, bağban, aşpaz, gözətçi və nəqqaşlar;
- televizor, soyuducu və digər məişət cihazları ustaları;
- fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu kimi fəaliyyət göstərənlər;
- xəstələrə, qocalara və uşaqlara qulluq edənlər və s.

Ə.Məmmədov qeyd etmişdir ki, sadələşdirilmiş verginin bu qəbildən olan ödəyiciləri üçün sabit vergi mexanizminin tətbiqi fərdi qaydada fəaliyyət göstərən aşağı gəlirli fiziki şəxslərin vergi və inzibati yükünün azaldılmasına, eyni zamanda məşğulluq sahəsində uçot sisteminin dürüstlüyünün təmin olunmasına xidmət edir.

Tədbirdə aylıq sabit verginin məbləği, fəaliyyət göstərilən ərazi üzrə tətbiq olunan əmsallara da aydınlıq gətirilmişdir. Beləliklə:

- toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcı, çalğıçı, rəqqas, aşıq, məzhəkəçi və digər oxşar fəaliyyətlərlə məşğul olanlar üçün 30 manat;
- fərdi foto, audio-video xidmətləri göstərənlər üçün 30 manat;
- çəkməçi və pinəçilər üçün 5 manat;
- saat, televizor, soyuducu və digər məişət cihazları ustaları üçün 10 manat;
- fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, aşpaz, gözətçi və digər analoji işlərlərlə məşğul olanlar üçün 10 manat;
- nəqqaşlıq emalatxanalarının fəaliyyəti üçün 20 manat həcmində vergi tətbiq olunur.

Fəaliyyət göstərilən ərazi üzrə tətbiq olunan əmsallar isə:

- Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) 2,0;
- Gəncə, Sumqayıt və Xırdalan şəhərlərində 1,5;
- Abşeron rayonunun qəsəbə və kəndləri (Xırdalan şəhəri istisna olmaqla), Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan şəhərlərində 1,0;
- digər rayon (şəhər) və qəsəbələrdə (kəndlərdə) isə 0,5-dir.

Misal üçün, Bakı şəhərində şənliklərdə aparıcılıqla məşğul olan fiziki şəxsin 1 ay üçün ödəməli olduğu sabit vergi 30 manat ərazi üzrə əmsala vurulmaqla 60 manat edəcək. Yəni bu fəaliyyətlə məşğul olan şəxs Bakıda1 ay üçün 60 manat ödəyib fəaliyyətini həyata keçirmək üçün qəbz almalıdır. Yevlaxda həmin məbləğ 30 manat, Ağstafa rayonunun Sadıqlı kəndində isə 15 manat olacaq.



Sabit vergi fərdi şəkildə fəaliyyət göstərən fiziki şəxsin, gəlirindən və dövriyyəsindən asılı olmayaraq ödədiyi dəyişilməz vergi məbləğidir

Sabit vergi ödəyicisinin qeydiyyatı ilə bağlı bildirilmişdir ki, bu verginin ödəyicisi olan fiziki şəxs əgər vergi orqanında uçota alınmamışdırsa, qeydiyyatda olduğu ərazinin vergi orqanına müraciət etməli və VÖEN almalıdır: «Fiziki şəxs qeyd olunan fəaliyyətə başlayanadək vergi orqanından «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almalıdır. Bunun üçün ərizə ilə vergi orqanına müraciət edilməlidir. Qəbz yazılı müraciət olunduqda iki iş günündən gec olmayaraq, elektron qaydada müraciət etdikdə isə real vaxt rejimində veriləcək. Lakin hələlik elektron müraciət üçün proqram təminatı üzərində işlər həyata keçirilir və yaxın zamanlarda istifadəyə veriləcək».

Qeyd olunmuşdur ki, sabit vergi üzrə fəaliyyət göstərən vergi ödəyiciləri fəaliyyətin faktiki həyata keçirildiyi ərazi üçün müəyyən edilən vergi məbləğini ödəməli, fəaliyyət növlərindən bir neçəsi ilə məşğul olduğu halda hər bir fəaliyyət növü üzrə ayrıca qəbz almalı, eyni dövr ərzində müxtəlif əmsallar tətbiq olunan ərazilərdə fəaliyyət göstərərsə, bu zaman ən yüksək əmsal tətbiq edilən ərazi üzrə müəyyən olunmuş sabit vergi məbləğini ödəməlidirlər. Fəaliyyətin göstərilib-göstərilməməsindən asılı olmayaraq, ödənilən sabit vergi geri qaytarılmır və növbəti dövrlərin vergiləri ilə əvəzləşdirilmir. Ödəyicilər bu fəaliyyətə görə vergi orqanlarına bəyannamə vermirlər.

Vergi ödəyicilərinin nəzərinə çatdırılmışdır ki, göstərdikləri xidmətə görə nağd pul hesablaşmaları apararkən alıcılara ciddi hesabat blankı olan ödənişi təsdiq edən qəbz təqdim etməlidirlər. Sabit verginin ödəyiciləri sabit vergi üzrə qəbz almadan fəaliyyət göstərdikdə təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 40 faizi miqdarında, təqvim ili ərzində belə hallara iki və daha çox dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 100 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir. Bununla yanaşı, nağd pul hesablaşmalarının aparılması qaydalarını pozduqda sabit vergi ödəyiciləri təqvim ili ərzində belə hallara birinci dəfə yol verdikdə 400 manat, təqvim ili ərzində belə hallara ikinci dəfə yol verdikdə 800 manat, təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verdikdə isə 1200 manat ödəməli olacaqlar.

Tədbirin sonunda sabit verginin ilk ödəyicilərinə qəbz formaları təqdim edilib.

***Sabit vergi ödəyicisi, çəkməçi Füzuli Məmmədov:*** «Sabit verginin tətbiqi bizim üçün əlverişlidir. Ayda 10 manat ödəməklə işimizi rahat formada həyata keçirəcəyik. Əvvəllər çətinlik çətirdik, müəyyən prosedur qaydaları var idi ki, vaxt itkisinə səbəb olurdu. İndi gəlirimizin dövriyyəsindən asılı olmayaraq, müəyyənləşdirilmiş sabit vergi məbləğini ödəyərək qəbz alıb, fəaliyyətimizi rahat şəkildə həyata keçirə bilərik».

***Saatsaz Əyyar Cəlilov:*** «14 ildir vergi ödəyicisiyəm. 2004-cü ildə VÖEN almışam və vergilərimi vaxtlı-vaxtında ödəmişəm. Lakin hər rüb üzrə hesabat vermək, növbədə gözləmək əlavə vaxt itkisinə səbəb olurdu. Hesab edirəm ki sabit vergi məbləğinin müəyyən olunması fəaliyyətimizi asanlaşdıracaq».

**Aytən NƏBİYEVA**

# Elektron ticarətin vergiyə cəlb olunması

**Yazı Vergilər Nazirliyi tərəfindən KİV nümayəndələrinin suallarına əsasında hazırlanıb**

**ƏDV tətbiq edilən xidmətlərin aid olduğu sahələrin təsnifatı:** Elektron ticarət qaydasında malların alışı istisna olmaqla, bütün xidmətlər vergiyə cəlb edilir. Xidmətlərə gəlincə, qeyri-rezidentlər tərəfindən Azərbaycan rezidentlərinə ölkəmizin hüdudlarından kənarda birbaşa göstərilən xidmətlər istisna olmaqla, bütün e-ticarət xidmətləri ƏDV tutulan sahələrə aiddir. Həmin xidmətləri göstərən vətəndaşlar ödəmə həyata keçirərkən bank tərəfindən ƏDV hesablanır və alıcının vəsaiti hesabına tutulur. Elektron mallar ƏDV tutulan sahələrə aiddir. İnternet şəbəkəsi vasitəsilə elektron kitabların, musiqinin, audio-video materialların, qrafik təsvirlərin, virtual oyunların, proqram təminatlarının yüklənməsi qeyri-rezidentin göstərdiyi iş və xidmət hesab olunur və ƏDV-yə cəlb edilir.

Müştərilər alınan malların siyahısını, yaxud çeşidini alış-veriş etdiyi onlayn platformadan əldə edə biləcəklər. Yeri gəlmişkən, vətəndaşın kart hesabında e-ticarət zamanı iş və xidmətlərin dəyəri və hesablanmış verginin ödənilməsinə kifayət edəcək qədər vəsait olmalıdır.

**Xarici ölkələrdə təşkil olunan onlayn oyunların vergiyə cəlb edilməsi:** Qeyri-rezidentlər tərəfindən Azərbaycan Respublikasının hüdudlarından kənarda elektron qaydada təşkil olunan lotereya, yarış və müsabiqələrdə iştirakla bağlı ödənilən vəsaitə 18% dərəcə ilə ƏDV tətbiq edilir. Lotereyaların keçirilməsindən, digər yarışlardan və müsabiqələrdən qazanılan gəlirlər (mükafat) Azərbaycanda daimi nümayəndəliyi olmayan qeyri-rezident şəxslər tərəfindən ödənildikdə həmin gəliri əldə edən şəxsin bank hesabının olduğu yerli bank, xarici bankın ölkəmizdəki filialı və ya poçt rabitəsinin milli operatoru daxil olan uduş məbləğindən Vergi Məcəlləsinin 101.5-ci maddəsinə əsasən 10% dərəcə ilə vergi tutur və həmin vəsait dövlət büdcəsinə köçürülür.

**Elektron qaydada bilet alışı, otel sifarişləri zamanı ƏDV-nin tətbiqi:** Vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən internet vasitəsilə qatar, gəmi və sair biletlərin sifarişi, habelə bununla bağlı mehmanxana rezervasiyası, transfer xidmətləri və sair xidmətlər üzrə qeyri-rezidentlər tərəfindən göstərilən xidmətlər Azərbaycanın hüdudlarından kənarda həyata keçirildiyindən, belə xidmətlərin göstərilməsinə görə onlara ödəniş aparılarkən ƏDV-nin hesablanması nəzərdə tutulmayıb.

**Xarici şirkətlərə aid elektron «pul kisələri»ndən məhsul alınmasına vergi tətbiqi:** Vergi Məcəlləsinin 1 yanvar 2017-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən qeyri-rezidentdən elektron ticarət qaydasında işlərin və xidmətlərin alınmasına görə aparılan ödənişlərdən ƏDV hesablanmalı və ödənilməlidir. Qeyri-rezidentlərə məxsus elektron «pul kisələri»ndə yaradılmış hesaba köçürülən vəsaitdən ödəməni həyata keçirən yerli banklar, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru tərəfindən 10 faiz dərəcə ilə ödəmə mənbəyində vergi hesablanır və alıcının hesabından tutulur. Vergi orqanlarında uçotda olmayan şəxsin qeyri-rezidentə məxsus elektron «pul kisəsi»ndə yaradılmış hesabı vasitəsilə digər şəxslərdən elektron ticarət qaydasında iş və xidmət alışı üzrə apardığı əməliyyatlardan 18 faiz dərəcə ilə vergilərin hesablanması üzrə vergi öhdəliyi yaratmır.

**«Amazon», «e-Bay» kimi ödəniş platformalarından alınan məhsullardan, «PayPal» üzərindən həyata keçirilən xidmətlərdən vergi tutulmasının tənzimlənməsi:** Azərbaycanın rezidentləri tərəfindən «PayPal» və qeyri-rezidentlərə məxsus digər elektron «pul kisələri»ndə yaradılmış hesaba köçürülən vəsaitdən ödəməni həyata keçirən yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru tərəfindən 10 faiz dərəcə ilə vergi hesablanır və alıcının hesabından tutulmaqla dövlət büdcəsinə ödənilir. Vergi orqanlarında uçotda olmayan şəxsin qeyri-rezidentə məxsus elektron «pul kisəsi»ndə yaradılmış hesabı vasitəsilə digər şəxslərdən elektron ticarət qaydasında iş və xidmət alışı üzrə apardığı əməliyyatlardan 18 faiz dərəcə ilə vergilərin hesablanması Vergi Məcəlləsində nəzərdə tutulmayıb.

**Onlayn-bankinq xidmətlərinin vergiyə cəlb edilməsi:** Vergi Məcəlləsində əsasən, elektron ticarət qaydasında təqdim edilən iş və xidmətlərə görə ödəmə aparılan zaman verginin hesablanması ilə bağlı müddəalar əks olunub. Rezident şəxslərin onlayn qaydada göstərdikləri xidmətlərə, o cümlədən bankların göstərdiyi onlayn-bankinq xidmətlərə və rezident şəxslərə ödənilən xidmət haqlarına görə müştərinin hesabından vergi tutulmur. Rezident şəxslərin elektron ticarət qaydasında göstərdikləri iş və xidmətlərə görə əldə etdikləri gəlirlərdən vergi öhdəliklərini tətbiq etdikləri vergitutma sistemindən asılı olaraq müstəqil surətdə hesablanıb dövlət büdcəsinə ödəniləcək. Qeyri-rezident bankların onlayn bankinq xidmətləri üzrə vergi orqanında uçotda olmayan fiziki şəxslərin ödəmələr aparması zamanı rezident banklar və poçt rabitəsinin milli operatoru tərəfindən alıcının vəsaiti hesabına 18% ƏDV hesablanacaq və dövlət büdcəsinə ödəniləcək.

**Sosial şəbəkələrdə yerləşdirilən reklamların vergiyə cəlb edilməsi:** Qanunvericiliyə əsasən, elektron ticarət qaydasında iş və xidmət, o cümlədən reklam xidməti alınan zaman banklar tərəfindən ƏDV-nin hesablanması öhdəliyi yalnız vergi ödəyicisi kimi vergi orqanlarında uçotda olmayan şəxslərin apardığı belə əməliyyatlar zamanı yaranır. Vergi orqanlarında qeydiyyatda olan şəxslərin sahibkarlıq fəaliyyəti ilə bağlı apardıqları belə əməliyyatlar tərəflər arasında bağlanmış müqavilələrlə tənzimlənir və qeyri-rezidentə ödənilən müqavilə dəyərindən ƏDV-nin və ödəmə mənbəyində tutulan verginin hesablanması həmin şəxslərin öhdəliklərinə aid edilir.

Bəzi şəbəkələr, məsələn, «Google» həm xidmət, həm də məhsul satdığından, onun vasitəsilə aparılan e-ticarət zamanı alınan iş (xidmət) və mallar banklar tərəfindən əməliyyatlar üzrə texniki məlumatlara əsasən müəyyənləşdiriləcək.

**Qeyri-rezidentlərin onlayn qaydada göstərdikləri məsafədən (distant) təhsil xidmətlərinin ƏDV-yə cəlb edilməsi:** Təhsil xidmətləri (distant təhsil, onlayn kurslar, məşğələlər və s.) göstərilməsi ƏDV tutulan sahələrdir. Azərbaycanın hüdudlarından kənarda onlayn qaydada göstərilən təhsil xidmətlərinə görə qeyri-rezidentə ödəniş aparan şəxlərin ödədiyi vəsaitə ƏDV hesablanacaq və dövlət büdcəsinə ödəniləcək.

**Şəxsi hesablardan tutulacaq vergi ilə bağlı məlumatın əldə edilməsi:** Vergi orqanlarında uçotda olmayan şəxslər öz şəxsi bank hesablarından elektron ticarət qaydasında apardıqları əməliyyatlar üzrə banklar tərəfindən tutulmuş vergilər barədə məlumat əldə etmək üçün onlara xidmət göstərən banklara müraciət edə və ya bankların təqdim etdiyi elektron xidmətlərdən istifadə edə bilərlər.

**Xarici saytlardan onlayn alış-verişə ƏDV hesablanması:** E-ticarət qaydasında qeyri-rezidentlərdən iş və xidmət alınarkən ƏDV-nin hesablanması vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən ödənilən məbləğdən ödəməni həyata keçirən yerli bank, xarici bankın Azərbaycandakı filialı və poçt rabitəsinin milli operatoru tərəfindən alıcının hesabından tutulur və dövlət büdcəsinə ödənilir. Bu qaydalar elektron ticarət qaydasında qeyri-rezidentdən alınan mallara şamil edilmir. 18%-lik ƏDV iş və xidmətin ödənilmiş məbləğinin üzərinə hesablanmaqla alıcının hesabından tutulur.

**Xarici ölkəyə səfər zamanı onlayn xidmətlərdən istifadənin vergiyə cəlb olunması:** Azərbaycan Respublikasının vətəndaşları tərəfindən elektron ticarət qaydasında alınan iş və xidmətin dəyəri onların yerli bank və ya xarici bankın ölkəmizdəki filialındakı hesablarından ödənildiyi halda, ödəməni həyata keçirən banklar tərəfindən şəxsin ölkəmizdə və ya onun hüdudlarından kənarda yerləşməsindən asılı olmayaraq, vergi tutulur.

**İkiqat vergitutmanın aradan qaldırılması ilə bağlı saziş imzalanmış ölkələrlə aparılan əməliyyatlar:** İkiqat vergitutmanın aradan qaldırılması haqqında Azərbaycan Respublikası ilə digər dövlətlər arasında imzalanmış beynəlxalq müqavilələrə əsasən, birbaşa vergilərə (gəlirlərə, mənfəətə və əmlaka) şamil edilir. Həmin müqavilələrdə dolayı vergilər, o cümlədən ƏDV ilə bağlı məsələlərin həlli nəzərdə tutulmayıb və buna görə də e-ticarət zamanı əməliyyatlar həmin növ vergiyə cəlb olunur.



Elektron ticarətin vergiyə cəlb olunması mexanizmi barədə Vergilər Nazirliyi tərəfindən banklara müvafiq izahatlar verilib. E-ticarətlə məşğul olan fiziki və hüquqi şəxslərin fəaliyyətinə nəzarət mexanizmi vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq vergi orqanları tərəfindən həyata keçirilir. Vergi ödəyicilərinin qanunvericiliyin tələblərinə düzgün əməl edilməsi vəziyyətinin yoxlanılması üzrə vergi nəzarəti tədbirləri aparılacaq. Nəzarət tədbirləri zamanı digər dövlət orqanlarından, banklardan, vergi ödəyicilərindən məlumatlar toplanılacaq. Nəzarət, həmçinin, risklərin avtomatlaşdırılmış emalı sistemi üzrə emal edilməklə həyata keçiriləcək.

Vergi ödəyiciləri apardıqları əməliyyatlar zamanı hər hansı anlaşılmazlıqla rastlaşarsa, problem vergi orqanı tərəfindən deyil, bank tərəfindən həll olunacaq. Elektron ticarət qaydasında alınan iş və xidmətlərə görə vergilərin hesablanması ilə bağlı müştəri və bank arasında olan məsələlər tərəflər arasında mülki münasibətlər qaydasında tənzimlənəcək.

*Hazırladı:*
**ELBRUS CƏFƏRLİ**

# Dövlət büdcəsi layihəsinin vaxtında təqdim edilməsi məqsədilə...

Nazirlər Kabineti tərəfindən «Büdcə sistemi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanının 2-ci hissəsinin beşinci abzasına əsasən, Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi layihəsinin, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və proqnoz göstəricilərinin Azərbaycan Respublikasının Prezidentinə vaxtında təqdim edilməsi məqsədilə yanvarın 25-də sərəncam imzalanıb.

Sərəncama əsasən, «Büdcə sistemi haqqında» Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli qərarı ilə təsdiq edilmiş «Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları»nın müvafiq müddəalarından irəli gələn vəzifələri yerinə yetirməklə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ölkənin növbəti büdcə ili üzrə dövlət büdcəsinin və icmal büdcəsinin layihəsini və sonrakı üç il üçün icmal büdcənin göstəricilərini 2017-ci il sentyabrın 15-dək, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının növbəti büdcə ili və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyasını və proqnoz göstəricilərini, toplu maliyyə balansını 2017-ci il sentyabrın 10-dək, həmçinin həmin Qanunun 12-ci maddəsində göstərilən digər sənədləri hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etməlidirlər.

Dövlət Statistika Komitəsi cari il üçün ölkənin ortamüddətli iqtisadi və sosial inkişaf proqramını dəqiqləşdirmək məqsədilə 2016-cı ilin ilkin statistik məlumatlarını 2017-ci il fevralın 5-dək İqtisadiyyat Nazirliyinə və Maliyyə Nazirliyinə təqdim etməlidir. Sərəncama əsasən, Dövlət Statistika Komitəsi növbəti büdcə ili və gələn üç il üçün ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının, dövlət büdcəsi layihəsinin və toplu maliyyə balansının hazırlanması üçün zəruri statistik məlumatların İqtisadiyyat Nazirliyinə, Maliyyə Nazirliyinə, Vergilər Nazirliyinə və digər əlaqədar təşkilatlara mütəmadi surətdə təqdim olunmasını təmin etməlidir.

Vergilər Nazirliyinə və Dövlət Gömrük Komitəsinə növbəti büdcə ili və sonrakı üç il üçün dövlət büdcəsi gəlirlərinin layihəsini hazırlamaq məqsədilə 2017-ci il mayın 1-dək Maliyyə Nazirliyinin hazırladığı təlimat məktubuna uyğun olaraq, müvafiq məlumatları 2017-ci il iyulun 1-dək Maliyyə Nazirliyinə təqdim etmək tapşırılıb.

Sərəncama əsasən, Maliyyə Nazirliyi 2018-ci il və sonrakı üç il üçün dövlət və icmal büdcələrinin proqnozunun (gəlir, xərc və kəsir) ilkin ortamüddətli göstəricilərini 2017-ci il aprelin 10-dək, dəqiqləşdirilmiş variantını 2017-ci il sentyabrın 5-dək, dövlət büdcəsində dövlət investisiya xərclərinin ilkin həcmini 2017-ci il martın 31-dək, dəqiqləşdirilmiş məbləğini isə 2017-ci il iyulun 20-dək İqtisadiyyat Nazirliyinə təqdim etməlidir. Sərəncamda deyilir ki, Maliyyə Nazirliyi Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin yuxarı həddinin tənzimlənməsinə və fiskal dayanıqlılığın gücləndirilməsi məqsədilə yeni fiskal qaydalara dair Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi və Dövlət Neft Fondu ilə razılaşdırılmış təkliflərini beş ay müddətində hazırlayıb Nazirlər Kabinetinə təqdim etsin.

İqtisadiyyat Nazirliyi 2017-ci il üçün dəqiqləşdirilmiş, 2018-ci il və sonrakı üç il üçün ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və proqnoz göstəricilərinin, ümumi və əhalinin əsas sosial demoqrafik qrupları üzrə yaşayış minimumunun 2018-ci il üçün ilkin proqnozlarını 2017-ci il martın 1-dək, dəqiqləşdirilmiş variantını və növbəti il üçün dövlət büdcəsinin layihəsi ilə uyğunlaşdırmaq məqsədilə dövlət investisiya proqramının layihəsini 2017-ci il avqustun 1-dək Maliyyə Nazirliyinə təqdim etməlidir.

Bundan başqa, 2018-ci il və sonrakı üç il üçün ümumi daxili məhsulun həcminin, istehlak qiymətlərinin ortaillik indeksinin, ortaaylıq əməkhaqqının, əhalinin gəlir və xərclərinin, məşğulluğunun və demoqrafik göstəricilərinin ilkin variantını 2017-ci il martın 1-dək, dəqiqləşdirilmiş variantını isə 2017-ci il avqustun 1-dək Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna təqdim etməlidir. Sənəddə qeyd edilir ki, İqtisadiyyat Nazirliyi 2018-ci il və sonrakı üç il üçün ölkənin iqtisadi və sosial proqnoz göstəricilərinin koordinasiyalı şəkildə hazırlanması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə yaradılacaq komissiyanın tərkibinə dair təkliflərini bir ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidir.

Sərəncamda Vergilər Nazirliyinin regional və yerli bölmələrinə Vergilər Nazirliyinin və Maliyyə Nazirliyinin razılaşdırdığı formalara və cari il mayın 1-dək Maliyyə Nazirliyinin hazırladığı təlimat məktubuna uyğun olaraq, növbəti büdcə ili və sonrakı üç il üçün dövlət büdcəsinin gəlirləri üzrə proqnoz layihələrini 2017-ci il iyunun 1-dək Maliyyə Nazirliyinin aidiyyəti yerli bölmələrinə təqdim etmək tapşırığı qoyulub.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, nazirliklərin, komitələrin, idarə və təşkilatların rəhbərlərinə, şəhər və rayon icra hakimiyyəti orqanlarına tapşırılıb və bələdiyyələrə tövsiyə edilib ki, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təlimat məktubuna uyğun olaraq lazım olan materialları - iqtisadiyyatın müvafiq sahələrinin inkişafının təhlili əsasında növbəti büdcə ili və gələn üç il üçün ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasını, proqnoz göstəricilərini və toplu maliyyə balansını hazırlamaq üçün 2017-ci il iyulun 15-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsinlər.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, dövlət büdcəsindən müvafiq maliyyə yardımları alan idarə və təşkilatlar, həmçinin yerli icra hakimiyyətləri Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rayon (şəhər) üzrə maliyyə idarələri (şöbələri) ilə birlikdə qanunvericiliklə müdafiə olunan xərclər istisna olmaqla, digər xərclər üzrə qənaət rejimi gözlənilməklə növbəti büdcə ili və sonrakı üç il üçün büdcə layihələrini hazırlayıb (hər bir Dövlət Proqramı üzrə xərclər ayrıca göstərilməklə) 2017-ci il iyulun 1-dək Maliyyə Nazirliyinə təqdim etməlidirlər.

Nazirliklər, komitələr və dövlət büdcəsindən maliyyələşən digər təşkilatlar müəyyən edilmiş iqtisadi və sosial siyasət kursunun qısa və ortamüddətli dövrdə hədəfləri, habelə investisiya layihələrinin həmin hədəflərə uyğun əsas istiqamətlərini özündə aydın şəkildə ehtiva edən, dövlət maliyyə resurslarının nəticəəsaslı bölgüsünü (sektorlararası və sektor daxilində), nəticələrin proqnozlaşdırıla bilmə imkanlarını, fiskal intizamın gücləndirilməsini, o cümlədən nəticələrə görə məsuliyyət nəzərdə tutan daha təkmil ortamüddətli xərclər çərçivəsinin və nəticəəsaslı büdcə mexanizminin formalaşdırılmasına dair təkliflərini hazırlayıb 2017-ci il mart ayının 1-dək Maliyyə Nazirliyinə təqdim etməlidirlər. Həmin qurumlara, həmçinin, növbəti büdcə ili və sonrakı üç il üçün büdcə layihələrini (hər bir Dövlət Proqramı üzrə xərclərin və istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta ilə bağlı tələb olunan vəsaitin məbləği ayrıca göstərilməklə) 2017-ci il iyulun 1-dək Maliyyə Nazirliyinə təqdim etmək tapşırılıb. Bundan başqa, həmin qurumlar dövlət büdcəsi vəsaitinin səmərəli istifadəsini təmin etmək məqsədilə funksional təsnifatın müvafiq bölmələri çərçivəsində inzibati təsnifata uyğun olaraq, boş (vakant) ştatlar (vakant ştatların vəzifə adı, sayı və vəzifə maaşı göstərilməklə) barədə məlumatları hər rübdən sonrakı ayın 15-dək Maliyyə Nazirliyinə təqdim etməlidirlər.

Sərəncamda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna və Azərbaycan Respublikasının Dövlət Neft Fonduna növbəti büdcə ili və gələn üç il üçün öz büdcə layihələrinin ilkin variantını 2017-ci il martın 15-dək, dəqiqləşdirilmiş variantını isə 2017-ci il iyulun 1-dək İqtisadiyyat Nazirliyinə və Maliyyə Nazirliyinə təqdim etmək tapşırılıb.

Sərəncamda qeyd olunur ki, «Azəravtoyol» Açıq Səhmdar Cəmiyyəti Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, «Avtomobil Yolları» Məqsədli Büdcə Fondunun, Maliyyə Nazirliyi «Dövlət zəmanəti ilə alınan borcların Təminat Fondu»nun növbəti büdcə ili və gələn üç il üçün büdcə layihələrinin ilkin variantını 2017-ci il martın 15-dək, dəqiqləşdirilmiş variantını isə 2017-ci il iyulun 1-dək İqtisadiyyat Nazirliyinə təqdim etsinlər.

Bələdiyyələrə tövsiyə edilib ki, dövlət büdcəsindən yerli büdcələrə maliyyə yardımı (dotasiya) ilə bağlı təkliflərini martın 15-dək və «Büdcə sistemi haqqında» Azərbaycan Respublikası Qanununun 11.14-cü maddəsində göstərilən sənədləri və məlumatları 2017-ci il mayın 1-dək Maliyyə Nazirliyinə təqdim etsinlər.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, nazirliklərin, komitələrin, dövlət idarə və təşkilatlarının, səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərinin rəhbərlərinə, yerli icra hakimiyyəti orqanlarına tapşırılıb və bələdiyyələrə tövsiyə edilib ki, İqtisadiyyat Nazirliyinin və Maliyyə Nazirliyinin təlimat məktublarına uyğun olaraq, 2018-ci il və sonrakı üç il üzrə dövlət investisiya proqramının layihəsini hazırlamaq üçün müvafiq məlumatları və sənədləri 2017-ci il martın 1-dək İqtisadiyyat Nazirliyinə və Maliyyə Nazirliyinə təqdim etsinlər. Nazirliklər, komitələr və dövlət büdcəsindən maliyyələşən digər təşkilatlar, dövlət büdcəsindən müvafiq maliyyə yardımı (dotasiya, subvensiya və subsidiya) alan idarə və təşkilatlar 2017-ci il iyulun 1-dək aidiyyəti dövlət proqramlarının, tədbirlər planlarının icra vəziyyəti və əldə olunmuş nəticələr barədə məlumatları hazırlayıb Maliyyə Nazirliyinə və İqtisadiyyat Nazirliyinə təqdim etməlidirlər.

Bundan başqa, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən tədbirlərin dövlət sifarişinə aid olanları, həmçinin beynəlxalq və ölkə səviyyəli tədbirlərin keçirilməsi, habelə xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi üçün dövlət büdcəsində vəsaitin nəzərdə tutulması ilə bağlı təkliflərini hazırlayıb Maliyyə Nazirliyinə təqdim etməlidirlər.

Maliyyə Nazirliyinə və İqtisadiyyat Nazirliyinə ölkənin növbəti büdcə ili və gələn üç il üçün dövlət büdcəsi layihəsinin, iqtisadi və sosial inkişaf konsepsiyasının və toplu maliyyə balansının tərtibi üçün əlavə əsaslandırıcı materialları və hesablamaları mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, habelə onların struktur bölmələrindən, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, digər hüquqi şəxslərdən, bələdiyyələrdən, büdcə və büdcədənkənar dövlət fondlarından tələb etmələri tapşırılıb.

Dövlət büdcəsi gəlirlərinin icrasını təmin edən orqanlar və büdcədən maliyyələşən nazirliklər, komitələr və digər təşkilatlar, müvafiq dövlət fondları, dövlət büdcəsindən müvafiq maliyyə yardımı (dotasiya, subvensiya və subsidiya) alan idarə və təşkilatlar, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rayon (şəhər) üzrə maliyyə idarə və şöbələri növbəti büdcə ili və sonrakı üç il üçün büdcə layihələrini tərtib edərkən, Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli qərarı ilə təsdiq edilmiş «Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları»ndan irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etməlidirlər.

Sərəncam imzalandığı gündən qüvvəyə minib.

# Gənclər maarifləndirilir

Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının təşəbbüsü ilə şuranın üzvü olan gənclər təşkilatlarının rəhbərlərinin və maliyyə sahəsində çalışan əməkdaşların Vergi Məcəlləsinə edilmiş dəyişikliklər barədə məlumatlandırılması məqsədilə yanvar ayının 31-də Vergilər Nazirliyində seminar keçirilmişdir. Seminarda 40-a yaxın gənclər təşkilatının nümayəndələri iştirak etmişdir.

Vergi Məcəlləsinə edilən dəyişikliklərə ictimaiyyətin, o cümlədən də gənclər təşkilatlarının nümayəndələrinin diqqət və marağının müsbət qiymətləndirildiyini deyən Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva bildirmişdir ki, ötən il iqtisadi sahədə aparılmış ardıcıl və intensiv islahatların tərkib hissəsi kimi vergi qanunvericiliyi də təkmilləşdirilmişdir. İslahatları qruplaşdırsaq, qanuna edilən dəyişikliklər daha çox bu istiqamətləri əhatə edir:

- vergi yükünün azaldılması;
- vergi uçotunun və sahibkarlar arasında aparılan əməliyyatların uçota alınması prosesində şəffaflığın artırılması;
- vergi qanunvericiliyinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması;
- vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi;
- vergi yoxlamalarının sadələşdirilməsi;
- vergi ödəyicilərinin mənafelərini müdafiə edən normaların qəbul olunması və s.

Gənclərə islahatların hər bir istiqaməti barədə məlumat verilmiş, ayrı-ayrı anlayışlar izah edilmişdir.

Seminar başa çatdıqdan sonra tədbir iştirakçıları öz təəssüratlarını bildirmişlər:

***Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının sədri Seymur Hüseynov:*** «Ötən il ölkəmizdə istər vergi qanunvericiliyi sahəsində, istərsə də iqtisadiyyatın tənzimlənməsi və digər sahələrdə böyük islahatlar ili kimi yadda qaldı. Əminəm ki, 2017-ci ildə də bu islahatlar davam etdiriləcək. Gənclər təşkilatları bu islahatları tam dəstəkləyir. Belə hesab edirik ki, aparılan islahatlar ölkədə şəffaflığın artırılmasına, qanundan yayınmaların azaldılmasına, ümumiyyətlə iqtisadi vəziyyətin daha da canlandırılmasına yönəldilmişdir. Vergilər Nazirliyi rəsmiləri ilə birgə keçirilən bu seminarın məqsədi də gənclərin qeyri-hökumət təşkilatlarının Vergi Məcəlləsinə və digər sənədlərdə edilən dəyişikliklərlə bağlı biliklərini artırmaq, onları «ilk mənbədən» məlumatlandırmaq idi. Tədbir zamanı gənclər təşkilatlarının nümayəndələrinə onları maraqlandıran sualları vermək imkanı yaradılmışdı. Bu tədbirin nəticələri onu göstərir ki, gənclər təşkilatları qanunvericiliyin təkmilləşdirilməsi sahəsində atılan addımları dəstəkləyirlər və onlar qanunvericilikdəki yenilikləri gənc nəslə çatdırmağa hazırdırlar».

***Gəncliyin elm və mədəni inkişafı təşkilatının rəhbəri Sərdar Yusifoğlu:*** «Seminarda Vergi Məcəlləsi və digər normativ hüquqi aktlarla bağlı gənclər təşkilatlarının nümayəndələrinin ətraflı məlumatlanmasına imkan yaratdığı üçün Vergilər Nazirliyinə təşəkkür edirəm. Bu tədbirdə bizə qaranlıq qalan suallar nazirliyin əməkdaşları tərəfindən cavablandırıldı və gördük ki, vergi qanunvericiliyinə edilən son dəyişikliklər iqtisadiyyatımızın inkişafı məqsədilə atılan çox müsbət addımdır. Məsələn, nağdsız ödənişlərlə bağlı yeniliklər şəffaflığın qorunmasına əlverişli şərait yaradır. Elektron ticarətin vergiyə cəlb olunması ilə bağlı izaha ehtiyacı olan bəzi məqamlar var idi ki, bu görüşdə ona da aydınlıq gətirildi. Ümumiyyətlə, bu seminar çox məhsuldar keçdi və belə hesab edirəm ki, gənclər üçün çox faydalı oldu. Ölkədə dövlətçiliyin möhkəmlənməsində xüsusi əhəmiyyəti olan bu cür tədbirlərin davamlı keçirilməsini arzu edirəm».

**A.NƏBİYEVA**

# Yeni sənəd formaları və qaydalar

Vergilər Nazirliyinin kollegiyasında «Transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi qaydaları», «Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək üçün vergi ödəyicilərinin qeydiyyatının aparılması qaydası», «Nəzarət olunan əməliyyatlar barədə arayış forması və onun tərtib edilmə qaydası», «Vergi Məcəlləsinin 90.3-cü maddəsinə əsasən təqdim edilən rüblük məlumat forması», «Vergi Məcəlləsinin 90.3-3-cü maddəsinə əsasən təqdim edilən aylıq məlumat forması» və «Vergi Məcəlləsinin 90.3-4-cü maddəsinə əsasən təqdim edilən aylıq məlumat forması» adlı sənədlər təsdiq edilib.

***Transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi***

Qaydaya əsasən, vergi ödəyicisi tərəfindən nəzarət olunan əməliyyatlar çərçivəsində təqdim edilən və ya alınan malların (işlərin, xidmətlərin) qiymətləri müqayisə edilən nəzarət olunmayan əməliyyatlar üzrə qiymətlərə uyğun olmadığı halda vergi ödəyicisi və vergi orqanı həmin əməliyyatdan vergini transfer qiymətləri əsas götürülməklə yenidən hesablayır. Transfer qiymətlərinin müəyyən edilməsi - «qiymətlərin müqayisəsi», «sonrakı (təkrar) satış qiyməti», «dəyərin toplanması», «rentabellilik», «mənfəətin bölgüsü» üsullarından istifadə edilməklə həyata keçirilir. Transfer qiymətinin müəyyən edilməsi üçün mümkün olduğu bütün hallarda qiymətlərin müqayisəsi üsulu tətbiq edilməlidir. Yalnız transfer qiymətinin qiymətlərin birbaşa müqayisəsi yolu ilə müəyyən edilməsi mümkün olmadıqda, habelə bu üsulun tətbiqi üçün müqayisə oluna bilən əməliyyatlar, yaxud həmin əməliyyatlar üzrə qiymətlər haqqında məlumatlar olmadıqda digər üsullardan istifadə edilə bilər.

***Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək üçün vergi ödəyicilərinin qeydiyyatının aparılması qaydası***

Bu Qayda Vergi Məcəlləsinin 24.0.7-2-ci və 165.4-cü maddələrinə əsasən Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada təşkil edilən ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək üçün vergi ödəyicilərinin vergi orqanları tərəfindən qeydiyyatının aparılması üzrə prosedurları müəyyən edir. Satıcı ticarət festivallarının təşkili qaydasının tələbləri nəzərə alınmaqla qeydiyyata alınmaq üçün ƏDV ödəyicisi kimi qeydiyyatdan keçməli, pərakəndə ticarət fəaliyyəti ilə məşğul olmalı, pərakəndə ticarət fəaliyyəti üçün vergi orqanında qeydiyyatda olan təsərrüfat subyektinə (obyektinə), həmin təsərrüfat subyektində (obyektində) vergi qanunvericiliyinə uyğun olaraq quraşdırılmış nəzarət-kassa aparatına və işlək vəziyyətdə olan POS-terminala malik olmalı, Vergi Məcəlləsi ilə müəyyən edilmiş vergilərlə bağlı dövlət büdcəsinə borcu və digər öhdəliyi olmamalıdır.

Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək istəyən vergi ödəyicisi satıcı kimi qeydiyyata alınmaq üçün kağız daşıyıcıda və ya elektron formada «Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərti ilə satış həyata keçirmək istəyən vergi ödəyicisinin satıcı kimi qeydiyyata alınması haqqında ərizə» ilə vergi orqanına müraciət etməlidir.

***Nəzarət olunan əməliyyatlar barədə arayış» forması və onun tərtib edilməsi qaydası***

Nəzarət olunan əməliyyatlar haqqında arayış tərtib edilərkən «vergi ödəyicisi haqqında ümumi məlumat», «nəzarət olunan əməliyyatlar barədə məlumat», «nəzarət olunan əməliyyatlar üzrə tətbiq edilən transfer qiymətləndirilməsi haqqında məlumat» bölmələri üzrə zəruri məlumatlar müvafiq xanalarda qeyd edilir. Nəzarət olunan əməliyyatlar barədə arayışa əlavənin tərtib edilməsi zamanı isə qarşılıqlı surətdə asılı şəxs barədə məlumat verilir.

**AYTƏN**

# Vergi Məcəlləsinə dəyişikliklər ictimaiyyətin müzakirəsində

Vergi Məcəlləsinə edilmiş dəyişikliklər Azərbaycanda fəaliyyət göstərən audit-konsaltinq şirkətləri tərəfindən də geniş müzakirə olunmaqdadır. «BSC» konsaltinq şirkətinin sahibkarlığa dəstək məqsədilə keçirdiyi maarifləndirmə tədbirində nağd və nağdsız hesablaşmalar, sahibkarlıq fəaliyyəti subyektləri arasında malların, işlərin və xidmətlərin təqdim edilməsi zamanı elektron qaimə-fakturanın təqdim olunması, kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı ƏDV-nin ticarət əlavəsindən hesablanması və digər yeniliklər müzakirə olunub.

Şirkətin maliyyə-vergi məsələləri üzrə mütəxəssisi Arzu Xəlilova tədbirdə çıxış edərək bildirib ki, Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər əsas etibarilə kiçik və orta sahibkarlığın stimullaşdırılmasına, pərakəndə ticarətdə rəqabət mühitinin təmin olunmasına və vergi yükünün optimallaşdırılmasına xidmət edir. Bildirilib ki, Məcəllədə nəzərdə tutulan vergi güzəştləri və azadolmalarla bağlı dəyişikliklər vergi ödəyicilərinin dövriyyə vəsaitlərindən səmərəli istifadə etmələrinə şərait yaradacaq, sahibkarlığın inkişafına töhfə verəcək. Qeyd olunub ki, vergi sistemində şəffaflığın təmin edilməsi başlıca prioritetlərdən biri kimi müəyyən olunub və bu sahədə ən mühüm yeniliklərdən biri sahibkarlıq fəaliyyəti subyektləri arasında malların, işlərin və xidmətlərin təqdim edilməsi zamanı elektron qaimə-fakturanın təqdim edilməsi ilə bağlıdır. E-qaimə-fakturanın tətbiqi sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşdirilməsi prosedurunun sadələşməsinə, operativliyin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına, sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcəkdə vergi orqanları ilə fikir ayrılıqlarının qarşısının alınmasına və şəffaflığın təmin olunmasına səbəb olacaq.

Tədbirdə əsas müzakirə mövzularından biri də kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı ƏDV-nin ticarət əlavəsindən hesablanmasına dair Məcəlləyə edilmiş dəyişikliklərlə bağlı olub. Bildirilib ki, kənd təsərrüfatı məhsullarının istehsalçıları vergilərdən azad edilsə də, onların məhsulları ticarət şəbəkələri tərəfindən pərakəndə qaydada satılarkən bu məhsulların da tam dəyəri ümumi qaydada ƏDV-yə cəlb edildiyi üçün pərakəndə satış qiymətində bahalaşmaya səbəb olurdu. Qeyd edilənləri nəzərə alaraq, kiçik və orta sahibkarlığı stimullaşdırmaq, pərakəndə ticarətdə rəqabət mühitini təmin etmək və vergi yükünü optimallaşdırmaq məqsədilə pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan sahibkarlar tərəfindən Azərbaycanda istehsal edilmiş kənd təsərrüfatı məhsullarının satışı zamanı ƏDV ticarət əlavəsindən hesablanacaq.

Elektron ticarətin vergiyə cəlb edilməsi ilə bağlı qanunvericiliyə edilmiş əlavə və dəyişikliklər barədə iştirakçıları məlumatlandıran şirkət rəsmisi bildirib ki, bu, elektron ticarət aparan vergi ödəyicilərinə şəffaf nəzarətin təmin edilməsinə, rezident və qeyri-rezident elektron ticarət iştirakçıları arasında ziddiyyətlərin aradan qaldırılmasına imkan verəcək.

**ELBRUS**

beynəlxalq panoram

# Çində vergi yığımının artımı aşağı düşüb

Maliyyə Nazirliyindən bildirilmişdir ki, keçən il Çinin dövlət büdcəsinə vergi daxilolmalarında azalma baş vermişdir. Bu azalmanın əsas səbəbi kimi iqtisadiyyatın artımının ləngiməsi və əlavə dəyər vergisi bazasının genişləndirilməsi göstərilir.

Keçən il ölkə üzrə vergi daxilolmaları təxminən 4,5% artmış və 16 trilyon yenə (2,3 trilyon ABŞ dolları) çatmışdır. Bu göstərici əvvəlki illərin nəticələrindən əsaslı şəkildə azdır - 2015-2014-cü illərdə vergi yığımındakı artım müvafiq olaraq 8,4%-8,6% olmuşdu. Maliyyə Nazirliyi tərəfindən buna aydınlıq gətiriləræk bildirilmişdir ki, Çində vergi yığımındakı artımın aşağı düşməsi xidmət sahəsində biznesə qoyulan vergidən əlavə dəyər vergisinə keçidlə bağlı olmuşdur. Biznes vergisindən gəlirlər 2016-cı ildə 40,4% azaldığı halda, ƏDV daxilolmaları cəmi 30,9% artmışdır.

Bildirilmişdir ki, il ərzində ölkədə korporativ vergi daxilolmaları 6,3%, gəlir vergisindən daxilolmalar isə 17,1% artmışdır. Digər tərəfdənsə, tütün və neft məhsullarının satışının azalması sayəsində istehlak vergisinin yığımında 3,1% azalma qeydə alınmışdır.

# ABŞ və Bəhreyn xarici hesablardan vergi tutulması barədə saziş imzalayıb

Bəhreyn ABŞ-ın xarici hesabların vergiyə cəlb olunması barədə qaydalarını (FATCA) ratifikasiya etmişdir. Bu sənəd ABŞ hökumətinə öz vətəndaşlarının xarici maliyyə müəssisələrində olan hesablarına nəzarət etmək səlahiyyətinin verilməsinə yönəldilmişdir. Barəsində sorğu verilmiş məlumat təqdim edilmədiyi halda, ABŞ-a öz ərazisində əldə edilmiş gəlirlərin 30%-i məbləğində cərimə qoymaq hüququ verilir.

Beynəlxalq saziş olan FATCA Bəhreynin və ABŞ-ın maliyyə qurumları arasında vergilərlə bağlı informasiyaların mübadiləsi prosesini sadələşdirməyə, eləcə də zəruri informasiyaların əldə edilməsi üçün çoxlu sayda hüquqi məhdudiyyətləri aradan qaldırmağa imkan yaradacaq.

# Misirdə ƏDV artırılacaq

Hökumət büdcəyə əlavə vəsaitlərin cəlb edilməsi məqsədilə planlaşdırılan tədbirlər çərçivəsində bu ilin sonuna qədər əlavə dəyər vergisinin dərəcəsinin artırılmasını nəzərdə tutur. Maliyyə naziri Əmr Əl-Qari demişdir ki, hökumət büdcədə yaranan böyük kəsiri aradan qaldırmaq üçün ƏDV-nin dərəcəsini bu ilin iyulunda qaldıracaq. Əvvəllər isə bu addımın oktyabr ayında atılacağı bəyan edilmişdi. Qeyd edək ki, Misirdə ƏDV Beynəlxalq Valyuta Fondunun 2016-cı ildə qəbul etdiyi və 12 milyard dollar məbləğində krediti ehtiva edən proqram çərçivəsində mallar və xidmətlər üçün 10%-lik vergini əvəz etmişdir.

ƏDV-nin dərəcəsinin qaldırılması gəlirlərin artırılması planının bir hissəsini təşkil edir. Digər tədbirlərə gömrük sisteminin planlı şəkildə əsaslı təmiri və gəlir vergisinin artırılması daxildir.




# Ukraynada vergi məsləhətinin qaydaları dəyişdirilir

Vergi Məcəlləsində edilmiş son dəyişikliyə əsasən, bu il aprelin 1-dən vergi məsləhətlərinin verilməsinin yeni qaydaları qüvvəyə minəcək. «Crowe Horwath AC» şirkətinin partnyoru, vergi məsləhətçiləri palatasının direktoru Vitali Smerdov bəyan etmişdir ki, Ukrayna Dövlət Fiskal Xidməti tərəfindən verilən fərdi vergi məsləhətləri üzrə əsas dəyişiklik bu məsləhətin verilmə müddətinin dəqiqləşdirilməsi ilə bağlıdır, yeni qaydalara görə, məsləhət 30 gün əvəzinə 25 günə veriləcək, lakin müddətin 10 gün uzadılmasının mümkünlüyü təmin olunacaq.

Mühüm yeniliklərdən biri vergi orqanlarının birbaşa vergiyə aidiyyəti olmayan, lakin Dövlət Fiskal Xidmətinin nəzarət sahəsinə aid olan məsələlər barədə məsləhət vermək öhdəliyinin müəyyənləşdirilməsidir. Bundan əlavə, hazırda tətbiq olunan elektron məsləhət forması ləğv ediləcək. Vergi əməkdaşlarından məsləhətləri ya yazılı, ya da şifahi şəkildə almaq mümkün olacaq. Yeni qaydaların bu il aprelin 1-dən qüvvəyə minəcəyini nəzərə aldıqda martın 31-dək vergi ödəyicilərinə təqdim edilmiş bütün məsləhətlərdən (elektron və ya yazılı) 2017-ci ilin sonuna qədər istifadə etmək mümkün olacaq. 2018-ci il yanvarın 1-dən sonra isə bu məsləhətlərin vergi ödəyicilərini maliyyə məsuliyyətindən qorumaq qüvvəsi olmayacaq.

Məsələ bundadır ki, bütün yazılı fərdi məsləhətlər Ukraynanın Dövlət Fiskal Xidmətinin internet saytının vahid məlumat bazasında yerləşdiriləcək. Bu isə o deməkdir ki, o vaxta qədər verilmiş izahatları bu il aprelin 1-dən sonra kün deyil. «Ona görə də gələn il arxayın işləyə bilmək üçün yeni izahatlar, lakin bu il aprelin 1-dən sonra almaq daha məsləhətlidir», - Vitali Smerdov bildirmişdir.

# Böyük Britaniyanın kiçik sahibkarları bəyannamələri gecikdiriblər

Pulsuz praktiki məsləhətlər verən və kiçik biznesə dəstək göstərən «Informi» saytının məlumatına görə, ölkənin kiçik sahibkarlıq subyektlərinin 24%-i vergi bəyannamələrini internet vasitəsilə müəyyənləşdirilmiş son müddətdən (31) əvvəl təqdim etmişdir. Saytın araşdırmalarına görə, kiçik biznes sahiblərinin 7%-i özlərinin keçmiş səhvlərindən ibrət dərsi çıxarmayaraq, müəyyənləşdirilmiş müddət şərtinə iki dəfə əməl edə bilməmişlər. Sahibkarların 37%-i bunda öz mühasiblərini və ya kənardan dəvət etdikləri mühasibləri təqsirləndirmişlər. Aydın olmuşdur ki, rəyi soruşulanlardan 31%-i vəziyyətin necə düzəldilməsi barədə cüzi anlayışa malik deyil, 27%-i isə vergi bəyannamələrinin necə doldurulmasını bilmədiklərini etiraf etmişdir.

Vergi və yığımlar idarəsinin (HMRC) məlumatına əsasən, keçən il vergi bəyannamələrinin gecikdirilməsinə görə orta cərimə məbləği 284 funt sterlinq olmuşdur, bununla belə, cərimələnmiş hər yeddi sahibkardan biri il ərzində 500 funt sterlinqdən, hər yüz sahibkardan ikisi isə 800 funt sterlinqdən artıq cərimə ödəmişlər.

# Borcluların sayı və ödənilməmiş əmlak vergisinin məbləği artıb

Kişinyov şəhəri üzrə yerli vergilərin yığımı idarəsinin rəisi Qriqori Qasnaş bələdiyyə xidmətlərinin yığıncağında bildirmişdir ki, əvvəlki illə müqayisədə 2016-cı ildə daşınmaz əmlak vergisinin yığımında 1% artım olmuşdur. Bu göstərici son 10 ilin orta göstəricisindən 6% çoxdur. Bildirilmişdir ki, 2016-cı ildə daşınmaz əmlak üçün hesablanmış vergilərin məbləği 2,6 milyon ley (229 759 manat) artmışdır.

Bununla yanaşı, ödənilməyən vergilərin məbləği də artmışdır. İdarə rəisinin sözlərinə görə, keçən il min leydən (88,4 manat) artıq əmlak vergisi borcu olanların siyahısına daha 440 nəfərin adı əlavə edilmişdir.

Qeyd olunmuşdur ki, vergi borclarının 60%-ə yaxını bu kateqoriyadan olan vergi ödəyicilərinin payına düşür. Hazırda ödənilməmiş məbləğ 7,5 milyon ley (663 min manat) təşkil edir. «Keçən il biz ölkənin vergi xidmətinin mərkəzi aparatına vergidən yayınanlara məcburi cəzaların verilməsi ilə bağlı müraciət etdik. Bu məsələ barədə qanunvericiliyə düzəlişlər edildi, lakin hələlik irəliləyiş yoxdur», - idarə rəisi bildirmişdir.

## Xəbər lenti

**Böyük Britaniya**da bukmeykerlər cıdırdan qazanılan gəlirlərdən 10 faiz vergi ödəyəcəklər. İdman naziri Treysi Krauçun sözlərinə görə, hakimiyyətin bu addımı atması yerli və xarici bukmeykerlər üçün bərabər şərait yaradılmasını təmin edəcək, ölkədə idmanın və atçılığın inkişafı üçün əlavə vəsaitlər cəlb olunmasına imkan verəcək.

**Qazaxıstan**ın paytaxtı Astana şəhərinin ixtisaslaşdırılmış rayonlararası məhkəməsində dövlət gəlirlər orqanlarına qarşı şikayətlərə baxılması məsələsi müzakirə edilmişdir.

«Apple» şirkəti **Hindistan** hökuməti ilə iri istehsal zavodunun tikintisi barədə danışıqları yekunlaşdırmaq ərəfəsindədir. Bununla şirkət 1,25 milyard əhalinin yaşadığı ölkənin bazarında iştirak payını artırmaq niyyətindədir. «Apple» vergi güzəştləri, daha dəqiq desək, «komplektləşdirmə hissələrinin və avadanlıqların idxalı üçün 15 illik vergi tətilinin verilməsini» xahiş etmişdir.

**ABŞ-ın Meksika** ilə sərhəddə tikintisini nəzərdə tutduğu səddi Meksikadan idxal edilən mallara 20%-lik vergi tətbiq etməklə maliyyələşdirmək mümkündür. Belə bir rəsmi bəyanatla çıxış edən Ağ evin katibi Şon Spayserin sözlərinə görə, Tramp Meksikadan ixrac edilən mallara 20%-lik vergi tətbiq etmək niyyətindədir. İlkin hesablamalara görə, belə bir sxemin həyata keçirilməsi sayəsində ABŞ hər il əlavə olaraq 10 milyard dollar gəlir əldə edə bilər.

**Hindistan**da yerli gəmiçilik şirkətlərinə tətbiq olunan vergi və gömrük yığımları yanvarın 22-dən bu ölkəyə mal ixrac etmək üçün xarici gəmilərdən istifadə edən əcnəbi ixracatçılara da eyni qaydada şamil olunacaq.

**Bolqarıstan** Maliyyə Nazirliyinin açıqladığı rəsmi məlumata əsasən, 2015-ci ilin yekunlarına görə ən iri vergi ödəyiciləri ölkədə fəaliyyət göstərən banklar olmuşdur: yerli istehsal müəssisələrinin göstəriciləri maliyyə qurumları ilə müqayisədə əhəmiyyətli dərəcədə aşağıdır.

**Honkonq** və **Cənubi Koreya** arasında vergi məsələləri ilə bağlı maliyyə hesablarına dair informasiyaların 2019-cu ildən başlayaraq avtomatik mübadiləsi üzrə səlahiyyətli saziş imzalanmışdır.



krossvord

**Yuxarıdan aşağı:** 1.Qəbələ rayonunda kənd; 2.Turistlərin istirahəti və qalıb gecələməsi üçün lazımi şeylərlə təchiz edilmiş yer; 3.Şərqdə yazılı ədəbiyyatın geniş yayılmış şeir janrlarından biri; 4.Qərbi Avropada zadəgan titulu; 5.Təsviri sənətdə müharibə və hərbi həyat mövzularına həsr olunan janr *(bax şəklə)*; 6.Nəzəri fizikanın bir çox sahələrinə fundamental elmi töhfələr bəxş etmiş sovet fiziki. Bakıda küçə; 9.Üçüncü şəxs tərəfindən vekselin üz və ya arxa, yaxud vekselə əlavə olunmuş vərəqdə imza ilə təsbit edilən, vekselin ödənilməsinə görə cavabdehliyi təsdiq edən zəmanət; 13.Bərli-bəzəkli hökmdar oturacağı; 15.Yunan mifologiyasında ikinci nəsil tanrısı. Həmçinin, ABŞ-ın kosmik gəmisi; 16.Respublikamızın Xocavənd rayonunda kənd; 17.ABŞ-ın Pensilvaniya ştatında şəhər; 18.Qədim kart oyunu; 20.Ötən əsrin 70-ci illərinin əvvəllərində yaranmış rəqs musiqisinin bir növüdür; 21.Kanadada göl.

**Soldan sağa:** 1.Birjada faktiki vəziyyətdən asılı olaraq, qanunvericilik normaları daxilində məhsul, xidmət, qiymətli kağızlar və valyutaların qiymətlərinin/məzənnələrinin müəyyən edilməsi; 5.Güclü şəfaverici təsiri olan təbii qida; 7.Opera müğənnisi (lirik tenor), aktyor, rejissor, pedaqoq, teatr xadimi, Azərbaycanın xalq artisti; 8.Alkanlar sinfinə daxil olan üzvi birləşmə; 10.Yer kürəsində və ya dünyanın konkret hansısa hissəsində daima yenidən istehsal nəticəsində yenilənən və yaşayan insanların cəmi; 11.Hekayənin bir növü; 12.Ukraynada kurort-şəhər; 14.«Nəsimi» filmində Şəms obrazını canlandıran Azərbaycan kinoaktrisası; 19.Məhsul, mal, iş və ya xidmətlər satışından təşkilatın, müəssisələrin və sahibkarların aldığı pul vəsaiti; 21.Xırda alver, cürbəcür arayışlar vermək və s. üçün kiçik tikili, pavilyon; 22.Təhlükə imkanı, ola biləcək təhlükə, qorxulu iş; 23.M.P.Vaqifin şeiri; 24.Yaponiyada tarixi vilayət; 25.Badam və ya inək südündən, şəkər və jelatindən hazırlanan soyuq desert.


*Malazgird döyüşü. Səlcuqlar və Bizans arasında 1071-ci il avqustun 26-da baş verən savaş.*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Dekada; 2.Karavay; 3.Trans; 4.Oreqon; 5.İmran *(Qasımov)*; 6.İntern; 9.Vern *(Jül)*; 13.Uran; 15.Merinos; 16.Massiv; 17.Milord; 18.Diktor; 20.İlyas *(Əfəndiyev)*; 21.Həbib *(İsmayılov)*. **Soldan sağa:** 1.Dekstroza; 5.İki; 7.Karfagen; 8.Krit; 10.Davos; 11.Oleandr; 12.Uyğur; 14.Anime; 19.Amirani; 21.Harri *(Porter)*; 22.Saya; 23.Kombinat; 24.Vis; 25.Vedibasar.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

## Güləşçimiz İvan Yarıgin Qran-prisində yüksək yer tutub



Rusiyanın Krasnoyarsk şəhərində sərbəst güləş üzrə İvan Yarıgin Qran-prisi keçirilir. Sayca 28-ci dəfə keçirilən beynəlxalq turnirin qadın güləşi yarışlarında ölkəmizi Elis Manolova (69 kq) təmsil edib.

İlk görüşündə ABŞ təmsilçisi Tamira Mensaha uduzan güləşçimiz rəqibin finala yüksəlməsi ilə təsəllivеrici görüşdə iştirak hüququ qazanıb. Monqolustan idmançısı Tsetsegbayar Byambadorju məğlub edən güləşçimiz bürünc medal uğrunda mübarizəni davam etdirib. Növbəti görüşdə Elis Manolova Rusiya təmsilçisi Xanım Vəliyevaya qalib gələrək turnirin bürünc medalını qazanıb.

## Beynəlxalq turnirdə 13 medal



Azərbaycan cüdoçuları İtaliyanın Liqnano şəhərində ənənəvi «Alpe Adrea» beynəlxalq turnirində 5 qızıl, 4 gümüş və 4 bürünc medal qazanıblar.

22-ci dəfə baş tutan festivalda Avropanın müxtəlif ölkələrindən 1046 gənc cüdoçu mübarizə aparıb.

Azərbaycan komandasının heyətində Hacı Musayev (55kq), Kəramət Hüseynov (60 kq), İsmayıl İbrahimov (66 kq), Hasil Cəfərov (73 kq) və Aslan Mirzəyev (90 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıblar. Natiq Qurbanlı (60 kq), Naim Hüseynov (81 kq), Azər Yaqubov (90 kq) və Ayxan Cəfərov (+100 kq) gümüş, Tofiq Məmmədov (60 kq), Murad Heydərli (60 kq), Vüsal Cəmilzadə (73 kq) və Samir Ağayev (81 kq) isə bürünc medala sahib olublar.

Beləliklə, 13 medal əldə edən gənclərdən ibarət milli komandamız ümumi hesabda 1-ci yeri tutub.

## «Telekom» «Tbilisi»yə qalib gəlib

Yanvarın 30-da qadın voleybol komandaları arasında Azərbaycan Super Liqası yarışları çərçivəsində növbəti oyun keçirilib.

«Gənclik» Olimpiya İdman Kompleksində Gürcüstanın «Tbilisi» komandası Bakının «Telekom» klubu ilə qarşılaşıb.

Bakı təmsilçisinin üstünlüyü şəraitində keçən oyunda «Telekom» 3:0 hesabı ilə qalib gəlib. Hesabındakı xalların sayını 24-ə çatdıran «Telekom» turnir cədvəlində liderliyini davam etdirir. «Azərreyl» 19 xalla ikinci, «Azəryol» isə 10 xalla üçüncü pillədə qərarlaşıb.

## «Tour d'Azerbaidjan» 2016-cı ilin ən yaxşı yarışı oldu



İldən-ilə dünyada populyarlığı artan «Tour d'Azerbaidjan» beynəlxalq velosiped yarışı 2016-cı ildə ölkəmizin «Ən yaxşı idman yarışı» kimi Azərbaycan İdman Jurnalistlər Assosiasiyası (AİJA), Azərbaycan Respublikası Gənclər və İdman naziriyi (AGİN) və «Sportsman» jurnalının təsis etdiyi «Zəfər» beynəlxalq idman mükafatına layiq görülüb.

Qeyd edək ki, Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.1 kateqoriyalı «Tour d'Azerbaidjan» yarışı çoxmərhələli veloyürüşdür. Bu il may ayının 3-dən 7-dək keçiriləcək «Tour d'Azerbaidjan» artıq UCI-ın 2017-ci il üçün müəyyənləşdirdiyi təqvim plana daxil edilib.

## Dünyanın ən güclü 10 yığma komandası arasında...

Futzal üzrə Avropa çempionatının təsnifat mərhələsi başa çatdıqdan sonra milli komandaların yeni reytinq siyahısı açıqlanıb.

Planetin 10 ən güclü komandasının mövqeyi dəyişməz qalıb. Azərbaycan millisinin xal ehtiyatı dəyişməyib. Aktivində 1435 xal olan komandamız mövqeyini də qoruyub. Yığmamız yenə də planetin 10-cusudur.

Millimizin Avropa çempionatının seçmə mərhələsindəki rəqiblərinin mövqeyinə gəlincə, Macarıstan 1192 xalla 30-cu, Bosniya və Herseqovina 1129 xalla 38-ci yerdə qərarlaşıb. Təsnifat mərhələsini adlayan Albaniya 843 xalla 77-ci yerdə qərarlaşıb.

Reytinq cədvəlinə 1916 xalla Braziliya millisi liderlik edir. İspaniya 1893 xalla ikinci, Rusiya isə 1766 xalla üçüncü pillədə yer alıb.

## Useyn Bolt qızıl medalı geri qaytarıb



Yamaykalı yüngül atlet Useyn Bolt 2008-ci il Pekin Olimpiadasında əldə etdiyi 4x100 metr məsafəyə qaçış üzrə qızıl medalını geri qaytarıb.

Xatırladaq ki, Usain Boltun qazandığı qızıl medal onun komanda yoldaşının dopinq testinin nəticələrinin müsbət çıxması ilə əlaqədar əlindən alınıb.

Testlər nəticəsində Pekin Olimpiadasında U.Boltun komanda yoldaşı Nesta Karterin qadağan olunan preparatlardan istifadə etdiyi müəyyənləşib.

mozaika

maraqlı

## İpək nə vaxt yaranıb?



Çində ilk ipək parçalar və ipək sap hazırlanması ənənəsi 8,5 min il əvvəl yaranıb. «PLoS One» jurnalında dərc edilmiş məqalədə deyilir ki, bunu Çinin ən qədim insan düşərgəsi olan Szyaxu kəndindəki sərdabələrin birində aşkarlanan ipəyin kimyəvi izləri sübut edir.

Hefey şəhərindəki Elm və Texnologiya Universitetinin təmsilçisi Detsay Qun deyib: «Szyaxu kəndi sakinlərinin ipəkdən necə istifadə etdiklərini anlamağımız çətindir. Amma düşünürük ki, onlar ölülərini dəfn etmək üçün ipək parçalar istehsal ediblər. Qəbirlərdən tapdığımız sümük iynələr və ipək əyirmə alətləri bu ehtimalı gücləndirir. Deməli, kənd sakinləri təkcə iplik yox, ipək parça hazırlamağı da bacarıblar».

Qədim Çin rəvayətlərinə görə, Çin imperiyasında ipək parça və ipək sap hazırlanmasının sirri əfsanəvi «sarı imperator» Xuan-Dinin xanımı imperatriça Ley Szu bağçada tut ağacının altında çay içdiyi gün açılıb. İmperatriçanın fincanına ipək baraması düşüb. Bu xoşagəlməz «hədiyyə»ni açan Ley Szu başa düşüb ki, baramanın sapı bir neçə kilometr uzanaraq bütün bağı əhatə edir. İmperatriçə baramadan sap əyirməyi və parça hazırlamağı əmr edib.

tədqiqat

## Televizora çox baxmaq...

İnsanda fəaliyyətsizlik, passivlik yaradır ki, bu da piylənmə və ürək-damar xəstəlikləri ilə bağlıdır. Televizorun insan sağlamlığına zərərli təsirini göstərmək üçün getdikcə daha çox tədqiqat aparılır. Alimlər televizora uzun müddət baxmağın çox zərərli olmasının bir neçə səbəbini tapıblar.

Tədqiqatın nəticələri «Health & Medicine» jurnalında dərc edilib. Bu yaxınlarda Harvard İctimai Səhiyyə Məktəbində aparılmış araşdırma nəticəsində müəyyən olunub ki, televizora çox baxmaq piylənməni və 2-ci tip şəkərli diabetin inkişaf riskini xeyli artıra bilər. Rod-Aylend ştatında universitetdə aparılmış tədqiqat da televizora uzun müddət baxmağın zərərini sübut edib.

Televizora baxmaq insanın düşünməsinə də mane ola bilər. Televiziya kanalında müxtəlif məsələlər barədə müntəzəm verilən informasiya, fikir və təhlil insanı tənqidi təfəkkürdən imtina etməyə yönəldir. Bu yolla insanlar dezinformasiya edilə bilər və nəticədə onları asanlıqla manipulyasiya etmək olar.

təbiət

## Cənubi Qafqazda ilk...

Zaqatala-Balakən biosfer qoruğunun yaradılması üzrə işlər uğurla davam etdirilir. Həmin bölgədə sahəsi 40 min hektardan çox olan qoruq fəaliyyət göstərir. Bu qoruğun bazasında Cənubi Qafqazda ilk biosfer rezervatının yaradılması ilə bağlı hazırlıq işlərinə 2009-cu ildən başlanılıb, həm Almaniya, həm də Azərbaycan mütəxəssislərinin iştirakı ilə qiymətləndirmə aparılıb. 2013-cü ildə isə hər iki dövlətin müvafiq qurumları arasında Niyyət Protokolu, 2016-cı ilin oktyabrında isə Almaniyanın İnkişaf Bankı ilə Xüsusi Razılaşma və Maliyyələşmə Sazişi imzalanıb. Almaniya İnkişaf Bankı tərəfindən bu işlərə 4 milyon avroya qədər vəsait ayrılması nəzərdə tutulub və bu il üçün tədbirlər planı hazırlanır. Zaqatala-Balakən bölgəsində həm ölkə ərazisində, həm də Cənubi Qafqazda ilk biosfer qoruğu yaradılması işləri yaxın 4 il ərzində başa çatdırılacaq.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin direktor əvəzi Hikmət Əlizadə deyib: «Böyük əraziyə malik rezervat həm ərazinin biosferinin mühafizə olunmasını ehtiva edəcək, həm də həmin bölgənin sosial-iqtisadi inkişafına yol açacaq. Biosfer qoruğunun yaradılması həmin bölgədə istehsal sahələrinin ətraf mühitə zərərli təsirinin aradan qaldırılması, yerli məhsulların ekoloji təmiz əmtəə kimi qiymətləndirilməsi, turizmin inkişafı və əhalinin bundan mənfəət əldə etməsi məqsədi daşıyır».



elm

## İnsan ömrünü uzadan... ölüm testi

Amerikalı və isveçrəli alimlər ürək-damar xəstəliklərindən əziyyət çəkən insanların ömrünü müəyyənləşdirməyə qadir olan ölüm testi işləyib hazırlayıblar.

Ölüm testi qanda trimetilaminoksid (TMAO) molekullarının səviyyəsini təhlil edir. TMAO molekulları insan orqanizmi və sağlamlığı üçün təhlükə törədir, müxtəlif ciddi xəstəliklərin inkişafına səbəb olur. Xüsusilə ət, süd məhsulları və yumurtadan istifadə nəticəsində molekullar damarlarda tromb riskini artırır və qan dövranının pozulmasına gətirib çıxarır. Alimlər yeddiillik tədqiqatlar nəticəsində aydınlaşdırıblar ki, molekulların qanda yüksək olması insanlarda çox vaxt infarkt və insulta nəticələnir.

Ekspertlər hesab edirlər ki, insanlar test vasitəsilə ölümlərinin səbəbini və tarixini müəyyənləşdirərək ömürlərini uzada bilərlər. Bu, onun hesabına baş verəcək ki, onlar öz sağlamlıqlarına daha çox diqqət ayırmalı olacaqlar. Belə ki, insanlar test müayinəsindən sonra qanda TMAO molekullarının səviyyəsini aşağı salacaq preparatlardan istifadə edəcəklər.

**Müdriklər deyib ki...**



*«Yaxşılıq etmək istəyən adam bağlı qapıları döyər; sevən adamın isə üzünə bütün qapılar açıqdır».*

*Rabindranat Taqor (1861-1941)*




ELAN

«Vergilər» qəzetinə 2017-ci il üçün abunə kampaniyası davam edir

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.

Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22